RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 30 (8346) ÇƏRŞƏNBƏ AXŞAMI, 11 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Demokratiyanın növbəti təntənəsi

Azərbaycan Milli Məclisinə fevralın 9-da keçirilən seçkilər respublikamızın demokratik inkişafının növbəti təntənəsi oldu. O cümlədən parlament seçkilərinin əsas nəticəsi və ortaya qoyduğu başlıca reallıq Prezident İlham Əliyevin liderliyinin, rəhbərliyi altında keçirilən siyasətin alternativsizliyini bir daha təsdiq etdi.

## Mütərəqqi qanunvericilik

Bu, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanda keçirilən sayca altıncı parlament seçkiləri idi. Seçkinin dekabr ayından təşviqat mərhələsi Seçki Məcəlləsinin tələblərinə uyğun keçdi. Səsvermə isə 125 seçki dairəsi üzrə 5573 seçki məntəqəsində keçirildi. Seçici hüququna malik vətəndaşlar altıncı çağırış Milli Məclisdə deputat görmək istədikləri və layiq bildikləri namizədlərə səs verdilər.

Demokratik ölkələrin seçki təcrübəsi göstərir ki, hər bir seçkinin uğurunu təmin edən şərtlər sırasında siyasi iradə və ictimai-siyasi sabitlik amilləri ilə yanaşı, təkmil seçki qanunvericiliyinin də olması vacibdir. 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirib. Əsas Qanunda təsbit olunmuş müddəalara istinadən Azərbaycanda seçkilərin hüquqi bazası formalaşdırılıb. Konstitusiyanın 4-cü maddəsinə görə, xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. Əsas Qanunun 56-cı maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ var.

Azərbaycanın Seçki Məcəlləsi də demokratik standartlara uyğun tərtib olunmaqla, seçkilər sahəsində bütün şəffaflıq və qanunçuluq prinsiplərini özündə əks etdirir. Qüvvəyə mindikdən sonra məcəlləyə bir sıra dəyişikliklər də edilib ki, bütün bunlar ümumilikdə seçki institutlarının daha səmərəli fəaliyyət göstərməsinə, seçki prosesi ilə bağlı şikayətlərin daha çevik, operativ araşdırılmasına, seçici siyahılarının dəqiqləşdirilməsinə, seçkiləri müşahidə prosesinin asanlaşdırılmasına, namizədlərin təbliğat-təşviqat, vətəndaşların seçki hüququnun realizəsi imkanlarını yaxşılaşdırmağa, bir sözlə, seçkilərin daha şəffaf, demokratik şəraitdə keçirilməsinə xidmət edib.

Bütövlükdə respublikamızda demokratik institutlar inkişaf etdikcə seçki sisteminin təkmilləşdirilməsi prosesi uğurla həyata keçirilib. Əlbəttə, bütün bunların kökündə Azərbaycan hakimiyyətinin ölkədə demokratiyanın inkişafı ilə bağlı qətiyyətli və ardıcıl siyasəti dayanır. Ölkəmizdə keçirilmiş hər bir seçkinin demokratik cəmiyyətlərdə qəbul olunmuş standartlara və seçki qanunvericiliyinə uyğun olduğunu beynəlxalq təşkilatların seçkilərə dair verdikləri rəylərin müqayisəli təhlili də göstərir.

## Azad, ədalətli və şəffaf seçki

Son parlament seçkilərinin şəffaf və ədalətli keçirilməsi üçün yüksək əzmkarlığın ortaya qoyulması bu mühüm siyasi kampaniyanın bütün mərhələlərində hiss olunurdu. Belə ki, seçkiöncəsi bütün namizədlərə qanunvericilikdə nəzərdə tutulmuş imkanlardan əlavə olaraq seçicilərə öz platformaları barədə məlumat vermək üçün daha geniş şərait yaradılmış, onlara öz seçiciləri ilə görüşmək və fikirlərini çatdırmaq üçün xüsusi yerlər ayrılmışdı. Bunun nəticəsidir ki, təşviqat prosesində hər hansı ciddi problem qeydə alınmamışdı.

Seçki kampaniyasının əsas mərhələsi səsvermədir. Fevralın 9-da keçirilən səsvermənin şəffaf keçirilməsi, seçicilərin öz iradələrini azad ifadə edə bilmələri bu seçkidə də müvəffəqiyyətlə təmin edildi və onlar 1314 namizəd arasından layiq bildiklərinə səs verdilər.

Azərbaycanda seçkilərin demokratik, şəffaf, azad və ədalətli keçirilməsini təmin etmək üçün hələ uzun illər əvvəldən mühüm addımlar atılıb. Bunlardan biri seçki məntəqələrinə veb-kameraların quraşdırılması və seçki günü səsvermənin gedişinin internetdən birbaşa izlənilməsidir. Altıncı çağırış Milli Məclisə seçkilərlə əlaqədar seçki məntəqələrində proseslərin əvvəldən axıradək izlənilməsi məqsədilə 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmışdı.

Eyni zamanda bu seçkilərdə də "exit-poll"un keçirilməsi üçün şərait yaradılmışdı. "Exit-poll" keçirmək məqsədilə MSK-ya müraciət edən 3 təşkilatın hamısı qeydə alınmışdı ki, onların da ikisi öz fəaliyyətlərini xarici partnyorları ilə birgə qurmuşdu.

*Ardı 3-cü səh.*

# Ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar enerji sektorunun inkişafında da özünü göstərir

## Prezident İlham Əliyev "Azərenerji" ASC-nin "Dübəndi" yarımstansiyasının açılışında iştirak edib

Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Pirallahı rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq "Dübəndi" yarımstansiyasının açılışında iştirak edib.



AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayev dövlət başçısına yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar enerji sektorunun inkişafında da özünü aydın şəkildə göstərir. Respublikanın sosial-iqtisadi tərəqqisinin təmin edilməsində mühüm elementlərdən olan bu sahənin inkişafına son dövrlərdə çox böyük diqqət yetirilir. Ölkəmizin elektrik enerjisi təsərrüfatında köklü islahatlar həyata keçirilməklə bu proses davamlı xarakter alıb, enerji sisteminin etibarlılığının təmin olunması və bu sahədə mükəmməl infrastrukturun yaradılması üçün ardıcıl və kompleks tədbirlər hazırda da davam etdirilir.

"Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində Xəzər və Pirallahı rayonlarında yeni tikilən sosial və sahibkarlıq obyektlərinin, inkişaf edən sənaye, kənd təsərrüfatı, turizm müəssisələrinin, əhalinin artan tələbatını təmin etmək, qısaqapanmaları və sistem qəzalarını aradan qaldırmaq üçün yenidən qurulan "Dübəndi" yarımstansiyasının transformatorları daha güclü və yeniləri ilə əvəz edilib, mikro SCADA sistemi yaradılıb. Nəticədə güc defisiti aradan qaldırılmaqla yanaşı, etibarlılıq və dayanıqlılıq təmin edilib. Avadanlıqların açıq tiplidən qapalı tipliyə keçirilməsi yarımstansiyanı atmosfer şəraitinin təsirinə məruz qalmaq təhlükəsindən qoruyur. Yenidənqurma zamanı 63 MVA gücündə iki yeni transformator bina daxilinə yerləşdirilib ki, bununla həm də yarımstansiyanın gücü 126 MVA-ya çatdırılıb. Burada aparılan işlər zamanı Xəzər və Pirallahı rayonlarının perspektiv sosial-iqtisadi inkişafı nəzərə alınıb. İstehlakçıların enerji təchizatında fasilə yaranmaması üçün yenidənqurma işləri xüsusi rejimdə yarımstansiyanın fəaliyyəti dayandırılmadan icra olunub.

*Ardı 2-ci səh.*

# Gürcüstanın Baş Naziri Prezident İlham Əliyevi rəhbərlik etdiyi partiyanın parlament seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib

Gürcüstanın Baş Naziri Giorgi Qaxaria fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Giorgi Qaxaria Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının parlament seçkilərində inamlı qələbə qazanması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Azərbaycan Prezidenti və Gürcüstanın Baş Naziri ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafından məmnunluqlarını ifadə edərək, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əmin olduqlarını bildiriblər.

***Prezidentin Mətbuat Xidmətinin məlumatı***



# İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Həsən Ruhaniyə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Tarixi, mədəni və dini köklərə əsaslanan, mehriban qonşuluq şəraitində inkişaf edən Azərbaycan-İran münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlarda, xüsusən Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığımız birgə səylərimizlə xalqlarımızın rifahı naminə bundan sonra daha da möhkəmlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2020-ci il*

# Şamil AYRIM: "Azərbaycandakı bu seçkilərdə beynəlxalq standartlardan da üstün təşkilatçılıq gördük. Bunu bütün dünya görməlidir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, türkiyəli qonaqları salamlayan **Prezident İlham ƏLİYEV dedi:**

- Sizi yenidən görməyimə şadam. Keçən il bir çox tədbirlərdə, mərasimlərdə bir yerdə olduq. Bu il də görüşürük. Dünən axşam əziz qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan mənə telefonla zəng etmiş, seçkilərlə bağlı öz təbriklərini ifadə etmişdir. Bilirsiniz ki, yaxın gələcəkdə Bakıda Türkiyə-Azərbaycan Strateji Əməkdaşlıq Şurasının növbəti toplantısı keçiriləcəkdir. Bu toplantı ənənəvi olaraq hər il keçirilir - bir dəfə Türkiyədə, bir dəfə Azərbaycanda. İndi bu toplantıya da hazırlıq gedir. Əminəm ki, iki dost, qardaş ölkə arasındakı əlaqələr 2020-ci ildə də uğurla inkişaf edəcək. Əgər keçən il biz TANAP-ın Avropa sərhədinə çatdırılmasını birlikdə qeyd etmişiksə, bu il artıq "Cənub qaz dəhlizi"nin istismara verilməsini qeyd edəcəyik.

Sizə də təşəkkür edirəm ki, seçkilərdə müşahidəçi kimi iştirak etmisiniz. Böyük səylər göstərmisiniz və bu da çox önəmlidir. Çünki, əlbəttə, həm Türkiyədə, həm də Azərbaycanda keçirilən seçkilərdə bizim millət vəkillərimiz fəal olurlar, öz müşahidələrini aparırlar, fikirlərini bölüşürlər. Bildiyimə görə, artıq dünən siz bizim mətbuata da açıqlamalar vermisiniz. Bir daha sizə təşəkkür edirəm və bir daha "Xoş gəlmisiniz!" deyirəm.

❖ ❖ ❖

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri **Şamil Ayrım** dedi:

- Hörmətli cənab Prezidentim. Əvvəlcə, bizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Təbii ki, can Azərbaycanımızın dünən keçirdiyi seçkilərin Azərbaycanımız, bölgəmiz və Türkiyəmiz üçün xeyirli-uğurlu olmasını diləyirəm.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri olaraq mənimlə bərabər yoldaşlarım da seçkiləri müşahidə etdilər. Çox səmərəli müşahidələrimiz oldu. Seçkilər çox obyektiv keçirildi. Biz hamımız təcrübəli insanlarıq. Mən Azərbaycandakı seçkilərin demək olar ki, hamısında müşahidəçi olmuşam, elə yoldaşlarım da. Azərbaycandan kənarda da seçkiləri izləmişik. Həqiqətən Azərbaycandakı bu seçkilərdə beynəlxalq standartlardan da üstün təşkilatçılıq gördük. Bunu bütün dünya görməlidir.

*Ardı 2-ci səh.*

# Ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar enerji sektorunun inkişafında da özünü göstərir





Əvvəli 1-ci səh.

Bu yarımstansiya Bakıətrafı kənd və qəsəbələrin çox hissəsini, Pirallahı Sənaye Parkı, qaçqın və məcburi köçkün şəhərciyi, kabel zavodu, "Zirə Ekopark" kompleksi və digər yerlərin enerji təchizatını təmin edəcək.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

1953-cü ildə istifadəyə verilən və istismar müddəti başa çatan bu yarımstansiyanın avadanlıqları həddən artıq yüklənirdi ki, bu da istənilən zaman sistemdə qəza vəziyyətinin yaranmasına səbəb ola bilərdi. Yarımstansiya Xəzər dənizinə yaxın ərazidə yerləşdiyindən nəm və küləkli hava şəraitində də burada tez-tez qısaqapanmalar olurdu. Ona görə də "Dübəndi" yarımstansiyası sökülərək qapalı şəraitdə yeni texnologiyalar əsasında tam yenidən qurulub.

Burada yaradılan şəraitlə tanış olan dövlət başçısı "Dübəndi" yarımstansiyasının işçiləri ilə görüşdü.

Yarımstansiyanın kollektivini salamlayan **Prezident İlham ƏLİYEV dedi:**

- Yeni yarımstansiyanın açılışı münasibətilə sizi təbrik edirəm. "Dübəndi" yarımstansiyası indi bütün yüksək standartlara cavab verir və böyük ərazini elektrik enerjisi ilə qidalandıracaq. Əvvəlki yarımstansiyanın vəziyyəti çox acınacaqlı idi, demək olar ki, sıradan çıxmışdı. Ona görə yeni yarımstansiyanın tikintisi zəruri idi və bunu da "Azərenerji" yüksək səviyyədə təşkil edib. Beləliklə, Azərbaycan əhalisinin enerji ilə dayanıqlı təminatı işində növbəti önəmli addım atılmışdır.

Onu da bildirməliyəm ki, son illər ərzində bu sahəyə çox böyük diqqət göstərilir. Bunun sayəsində Azərbaycanda enerji təchizatı ilə bağlı bütün əsas problemlər demək olar ki, həllini tapmışdır. Son illərdə bu sahəyə göstərilən diqqət elə vəziyyət yaradıb ki, Azərbaycan artıq enerji təminatçısına çevrilib. Əvvəlki dövrlərdə biz idxaldan asılı idik. İndi isə öz tələbatımızı tam təmin edib, hətta ixrac da edirik.

Hesab edirəm ki, 2020-ci il "Azərenerji" üçün, ümumiyyətlə, Azərbaycan energetikləri üçün uğurla başlayıb. İlin əvvəlində iki böyük şirkət ölkəmizdə 440 meqavat gücündə yeni külək və günəş elektrik stansiyalarının tikintisi ilə bağlı Azərbaycanla müvafiq sazişlər bağlamışdır. İşlər bu il başlanacaq və beləliklə, bərpa olunan enerji növləri Azərbaycanda inkişaf edəcək, bu inkişaf geniş vüsət alacaq. Eyni zamanda bu gün bu yarımstansiyanın açılışı əlamətdar hadisədir. Bu il Mingəçevir İstilik Elektrik Stansiyasında bərpa işləri davam etdiriləcək. İlin birinci yarısında Mingəçevir İstilik Elektrik Stansiyası tam gücü ilə işləyəcək. Keçən il, ümumiyyətlə, 400 meqavat itirilmiş güclər bərpa olundu, onun böyük hissəsi Mingəçevir İstilik Elektrik Stansiyasının payına düşür. Bu il də Azərbaycanda təqribən 300-400 meqavat itirilmiş elektrik enerjisi bərpa olunacaq.

Eyni zamanda dövlət xətti ilə bərpa olunan enerji növlərinin yaradılması işi davam etdiriləcək. Bu il də bu sahəyə vəsait ayrılacaqdır. Beləliklə, generasiya gücləri, ötürücü xətlər, transformatorlar, yarımstansiyalar, bütün elektrik şəbəkəsi beynəlxalq standartlara tam cavab verəcək. Enerji təminatı hər bir ölkənin təhlükəsizliyi deməkdir, xüsusilə, Azərbaycan kimi sürətlə inkişaf edən ölkələr üçün. Təkcə keçən il qeyri-neft sektorunda 14 faizlik artım olub. Bütün bu işlər, yeni müəssisələr, fabriklər, zavodlar, artan əhali yeni enerji gücləri tələb edir. Biz də bunu yaradırıq. Azərbaycan dövləti bundan sonra da bu sahəyə diqqətini əsirgəməyəcək. Energetiklər isə öz vəzifə borclarını ləyaqətlə icra edərək ölkəmizin ümumi inkişafına bundan sonra da töhfə verəcəklər.

Bir daha sizi təbrik edirəm. Sizə yeni uğurlar arzulayıram.

**Energetiklər:** Çox sağ olun, minnətdarıq.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80 illiyi tamam olur.

Milli Azərbaycan Ədəbiyyatı Muzeyi ötən müddət ərzində xalqımızın çoxəsrlik mədəniyyətinin və böyük ədəbi irsinin tədqiqi və təbliği istiqamətində səmərəli fəaliyyət göstərmiş, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmişdir. Muzeydə qorunub saxlanılan qiymətli eksponatlar və nümayiş etdirilən qədim əlyazmalar, böyük ədiblərin əsərlərinə miniatürlər, xalq yaradıcılığı və tətbiqi sənət nümunələri, görkəmli şəxsiyyətlərlə bağlı nadir sənədlər, habelə müxtəlif əsrlərə aid digər maddi mədəniyyət abidələri ziyarətçilərdə ədəbiyyatımızın bu günədək keçdiyi inkişaf yolu barədə dolğun təsəvvür formalaşdırır. Fondları daim orijinal materiallarla zənginləşməkdə olan muzey bu gün respublikada mühüm elm və mədəniyyət mərkəzlərindən biri kimi tanınmaqla yanaşı, eyni zamanda geniş maarifçilik işi aparmaqdadır. Muzeyin elmi kadrların hazırlanmasında və muzeyşünasların yeni nəslinin yetişməsində təqdirəlayiq xidmətləri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan ədəbiyyatı tarixinin hərtərəfli öyrənilməsində, milli ədəbiyyat nümunələrinin toplanılıb mühafizə edilməsində rolunu nəzərə alaraq, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2020-ci il*

# Şamil AYRIM: "Azərbaycandakı bu seçkilərdə beynəlxalq standartlardan da üstün təşkilatçılıq gördük. Bunu bütün dünya görməlidir"

Əvvəli 1-ci səh.

Təəssüf ki, xüsusilə Avropa Şurasının, bir sıra qurumların Azərbaycan və Türkiyə ilə bağlı qərəzli münasibəti bizi çox narahat edir. Türkiyə Respublikasının parlamentində biz dostluq qrupunun tərkibində on nəfərik. Amma səmimiyyətlə söyləyirəm ki, 600 deputatımızın hamısı bu qrupun üzvü olmaq istəyir. Ürəkləri Azərbaycanın uğurları üçün döyünür.

Türkiyə olaraq bu seçkilərin şəffaf, sakit ab-havada keçməsinə, belə bir mühitin yaradılmasına görə, ilk növbədə, Zati-alinizə çox təşəkkür edirik. İkincisi, Azərbaycan xalqının mütəşəkkilliyini, öz dəyərlərinə sahib çıxmasını təqdir edirik. Üçüncüsü, bir təşəkkürümüz də namizədlərədir. Bu seçkilərdə gənc namizədlər də fəal idi. Onlar seçkilərə hazırlıq dövründə Türkiyədə olduğu kimi, qapı-qapı gəzərək təbliğat işləri aparıblar. Mən inanıram ki, bundan sonrakı seçkilərdə Azərbaycan bunun faydasını görəcək. Sizə yoldaşlarım adından bir daha təşəkkür edirəm.

Fürsətdən istifadə edib parlamentimizin sədrinin Sizə ən səmimi salamlarını çatdırmaq istərdim. Sizə bir daha ən səmimi təşəkkürlərimizi çatdırırıq. Var olun, sağ olun.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV** dedi:

- Çox sağ olun. Təşəkkür edirəm, hörmətli Şamil bəy, hörmətli dostlar.

Doğrudan da bu seçkilər çox önəmli idi. Çünki bu seçkilər Azərbaycanda aparılan islahatlara dəstək verməlidir və seçkilərin növbədənkənar keçirilməsinin əsas məqsədi də o idi ki, vaxt itirmədən islahatlar davam etdirilsin. Çünki həm struktur islahatları aparıldı, həm hökumət, həm Prezident Administrasiyası yenidən formalaşdırıldı və əlbəttə ki, Milli Məclis bu işlərdən kənarda qala bilməzdi. Ona görə əminəm ki, bu seçkilərin Azərbaycanın gələcək inkişafında çox önəmli rolu olacaq. Çünki bizim qanunvericiliyimiz ölkəmizin artan sürətinə uyğun olmalıdır. Eyni zamanda bizim beynəlxalq əlaqələrimiz də genişlənir və Azərbaycanın millət vəkilləri ölkəmizi bundan sonra da beynəlxalq təşkilatlarda ləyaqətlə təmsil etməlidirlər.

İndi bütövlükdə ölkəmizdə gəncləşmə siyasəti aparılır. Ancaq bu da çox düşünülmüş formada olmalıdır. Yaşlı nəslin təcrübəsi, gənclərin innovasiyaya meyilli olması, onların bilikləri, müasir proseslərə diqqətin yetirilməsi - bax, biz bu vəhdətin təşkil edilməsi üçün çalışırıq. Hesab edirəm ki, buna nail olmuşuq. Mənə verilən məlumata görə, seçkilər ölkə ərazisində çox sakit keçdi, qanunvericilik çərçivəsində, hər hansı bir narahatedici məqam olmadı. Bu seçkilərə çox böyük maraq var idi. Çünki mən xatırlamıram ki, Azərbaycanda keçirilmiş hansısa parlament seçkisində 1300-dən çox namizəd olsun. Yəni bu özlüyündə onu göstərir ki, seçkilər rəqabət şəraitində keçirildi və bütün namizədlərin qeydə alınması prosesində ədalətli mövqe nümayiş etdirildi. Bu qədər namizədin olması seçkilərə inamın təzahürüdür. Çünki əgər inam olmasaydı, bu adamlar bəlkə də seçkilərə qatılmazdılar. Ona görə bu seçkilərin xüsusi rolu var.

O ki qaldı, bəzi beynəlxalq müşahidə missiyalarının rəyinə, biz onların mənfi rəyinə çoxdan öyrəşmişik. Onların bəzi hallarda rəyi seçkilərdən öncə yazılır, özü də onlar tərəfindən yazılmır, başqa yerlərdə yazılır, onlara ötürülür. Biz bunu dəfələrlə müşahidə etmişik. Siz də Avropa Şurasının bizə qarşı olan mənfi münasibətini qeyd etdiniz. Bunun da son təzahürü qəbul edilmiş, yalan üzərində qurulmuş son qətnamədir. Yəni bu qətnamənin qəbul edilməsi, əslində, parlament seçkilərinə kobudcasına müdaxilədir. Birincisi, bu qətnamə saxtadır və biz bunu qəbul etmirik. Orada bizə qarşı irəli sürülən ittihamları rədd edirik və bizə qarşı ünvanlanmış dırnaqarası tələblərin heç birini icra etməyəcəyik. Bu, bir. İkincisi, bu qətnamənin qəbul edilmə vaxtı. Parlament seçkilərinə az vaxt qalmış bu qətnamənin qəbul edilməsi Azərbaycana qarşı olan mənfi və ədalətsiz yanaşmanın təzahürüdür.

Mən bu yaxınlarda yaxın dostumuz olan Mövlud Çavuşoğlu ilə görüş əsnasında bu barədə öz fikirlərimi bildirdim. O da eyni mövqedədir və biz yaxşı bilirik ki, Türkiyəyə və Azərbaycana Avropa Şurasında ikili standartlar tətbiq olunur. Bizdə gedən müsbət proseslər qeydə alınmır, bizim artan gücümüz sanki qıcıq, paxıllıq yaradır. Ancaq buna rəğmən, Türkiyə və Azərbaycan iki dost, qardaş ölkə kimi irəli gedir. Biz çox önəmli layihələri icra edirik, öz gücümüzü artırırıq. Hesab edirəm ki, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində gedən işlərdə bizim düzgün siyasətimiz artıq reallıqdır. Ən önəmlisi, bu seçkilərin keçirilməsi Azərbaycan xalqının iradəsidir. Əgər Azərbaycan xalqı bu seçkilərin keçirilməsindən narazı olsa, öz səsini ucaldardı. Bu gün siz də gördünüz, Azərbaycanda tam demokratik ab-hava mövcuddur. Seçki və seçkilərin keçirilməsi demokratiyanın təzahürlərindən biridir. Əgər namizədlər bu seçki kampaniyası ərzində belə fəal, mübariz olublarsa, - bu, əslində, belədir, siz də bunu qeyd etdiniz,-seçicilərə öz fikrini çatdırmaq üçün qapı-qapı gəziblərsə, əlbəttə ki, əgər onlar seçkilərdən narazı olsalar, öz səslərini ucaldardılar. Ancaq indiyə qədər biz belə hallara rast gəlmirik. Bu bir daha onu göstərir ki, bu seçkilər Azərbaycan xalqının iradəsini əks etdirir və əsas odur.

Bu seçki prosesində müşahidəçi kimi qardaş Türkiyənin nümayəndələrinin iştirakı bizi xüsusilə sevindirir. Bir daha sizə təşəkkürümü bildirirəm. Əminəm ki, Türkiyə Böyük Millət Məclisindəki Azərbaycan-Türkiyə dostluq qrupu bundan sonra da iki ölkə arasındakı əlaqələrin inkişafına xüsusi töhfə verəcək və siz də qeyd etdiyiniz kimi, mən də buna tam əminəm ki, Türkiyə parlamentinin istənilən üzvü Azərbaycanla dostluq qrupunun üzvüdür. Çünki bizdə də eyni yanaşmadır. Biz bundan sonra da birlikdə böyük işləri davam etdirəcəyik.

# Leonid KALAŞNİKOV: "Seçkilər həm rəqabət şəraitində, həm şəffaf, həm də demokratik keçdi"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri, Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Bu dəfə siz müşahidə missiyası ilə buradasınız. Çox şadam ki, Dövlət Duması geniş tərkibdə təmsil olunub, həmçinin MDB-dən çoxlu müşahidəçi var. Ümumilikdə, bu il seçkiləri 800-dən çox beynəlxalq müşahidəçi izləyir, çoxlu sayda beynəlxalq nümayəndələr var. Düşünürəm ki, sizin həm prosesi, həm də səsvermə gününü izləmək üçün bütün imkanlarınız olub. Bizi müdafiə və bu prosesdə iştirak etdiyinizə görə bir daha sağ olun.

MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri **Leonid KALAŞNİKOV** dedi:

- İlham Heydər oğlu, sağ olun. Bizə vaxt ayırdığınıza görə Sizə təşəkkürümüzü bildiririk. Sizinlə öz təəssüratlarımızı məmnuniyyətlə bölüşmək istəyirik. Mən və yoldaşlarım dünən onlarca seçki məntəqəsində olduq. Biz gördük ki, seçkilər həm rəqabət şəraitində, həm şəffaf, həm də demokratik keçdi. Biz Mərkəzi Seçki Komissiyasının sədri ilə görüşdük. Dünən MDB-nin bəyanatı qəbul edildi. Böyük missiyadır, orada bir neçə ölkə, İcraiyyə Komitəsi, Parlamentlərarası Assambleya var. Zənnimizcə, hər şey



ədalətli, şəffaf və demokratik keçdi. Mən çox gözəl anlayıram ki, bir çox digər beynəlxalq təşkilatlar var. Biz onlarla da görüşdük. Mən AŞ PA-dan təzəcə qayıtmışam, orada Sizi tez-tez xatırlayırlar. Biz beynəlxalq parlament təşkilatlarında da işimizi davam etdirəcəyik. Yəqin ki, orada Sizin fəxr edəcəyiniz nəticə var. Bu gün səhər mən bir neçə beynəlxalq müşahidəçinin rəyini gördüm. Hamı obyektiv olaraq seçkilərin çox uğurlu keçdiyini deyir.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun. Gəldiyiniz və bu vacib prosesdə iştirak etdiyiniz üçün sağ olun. Bu, əlbəttə, bizim 2018-ci ildə prezident seçkilərindən sonra elan etdiyimiz islahatların davamıdır və onları ardıcıl olaraq həyata keçiririk. Hər şey Azərbaycanın dayanıqlı inkişafının təmin olunmasına və demokratik proseslərin genişlənməsinə yönəlmiş ümumi inkişaf strategiyası çərçivəsində gedir. Buna görə də həyata keçirilən struktur islahatları, o cümlədən kadr islahatları da bir məqsədə xidmət edir: biz yerimizdə saymayaq. Çünki müvəffəqiyyətlərdən arxayınlaşmaq olmaz.

Ötən illər ərzində böyük nailiyyətlər əldə olunub. Lakin həyat öz şərtlərini diktə edir. Dünyada, bizim regionda, iqtisadi sahədə şərait dəyişir, yeni çağırışlar meydana çıxır. Ona görə biz buna hazır olmalıyıq və vaxt itirməməliyik. Bu səbəbdən hökumətin, Prezident Administrasiyasının, mərkəzi və yerli hakimiyyət orqanlarının yenilənməsi, kadr islahatları parlamentdən yan keçə bilməzdi. Xüsusən də mahiyyətcə, seçkiləri bir neçə ay irəli çəkməklə biz vaxta qənaət etdik. Çünki onsuz da yay aylarında parlament tətildə olur, sonra qayıtdıqda yenidən seçkilər başlayır. Çalışdıq ki, maksimum açıq seçkilər keçirək və ona görə də müşahidəçiləri, o cümlədən düzünü desək, obyektiv qiymət gözləmədiyimiz müşahidəçiləri də dəvət etdik.

Azərbaycanda keçirilən seçki kampaniyalarının təcrübəsinə əsasən deyə bilərəm ki, biz həmişə qərəzli münasibət görmüşük. Bununla belə, hesab edirik ki, bizim gizlədəcəyimiz heç nə yoxdur. Biz çoxlu sayda müşahidəçi dəvət etdik, gələnlərin hamısına minnətdarıq. Ona görə də son nəticədə nə yazılacağından və onları hansısa fikirləri səsləndirməyə məcbur edəcəklərindən asılı olmayaraq, hər halda onların hər birində həm ölkəmiz, həm insanlarımız, həm də seçki prosesi haqqında rəy formalaşacaq. Bu baxımdan Dövlət Dumasının nümayəndə heyətinin bu tərkibdə prosesdə iştirak etməsi bizim üçün çox qiymətlidir. Əlbəttə, MDB və digər beynəlxalq təşkilatların nümayəndə heyətləri də var. Ona görə də düşünürəm ki, başlıcası Azərbaycan xalqının nəticələrdən razı qalmasıdır. Çünki bizim üçün əsas məsələ bu idi ki, insanlar kimə səs verəcəklərini və kimə etimad göstərəcəklərini seçə bilsinlər. Bu etimadın səviyyəsi çox yüksəkdir.

Ümumilikdə, 1300-dən çox namizədin olması seçkilərə etimadın göstəricisidir. Bu isə görünməmiş saydır. Əgər onlar seçkilərə inanmasaydılar, öz namizədliklərini verməzdilər və bu qədər vaxt sərf etməzdilər. Mənə həm dünən, həm də bu gün məruzə etdilər ki, proses, ümumilikdə, sakit keçib və heç bir gözlənilməz hal olmayıb. Ona görə də kimsə qalib gəlir, kimsə məğlub olur. Hər kəs reallıqla barışmalıdır. Reallıqlar belədir ki, şərait yaradılıb, maksimum şəffaflıq təmin edilib. Həm də gözlənilməz çətin hava şəraitinə baxmayaraq, Azərbaycan vətəndaşları səs verdilər. Düşünürəm ki, seçki fəallığı da yaxşı olub. Hərçənd başlıca olan bu deyil, əsas odur ki, xalqın seçəcəyi insanlar məsuliyyət hiss etsinlər. Bilsinlər ki, əgər yenə də seçilmək istəyirlərsə, onda dairələrdə iş aparmalıdırlar. Bax bu, keçmiş parlamentdə çatışmırdı. Buna görə də parlamentin bir çox keçmiş üzvü dairələrdə işləmədikləri üçün seçkilərdə iştirak etmədi. Bu, yeni parlamentin qarşısında duran əsas vəzifələrdən biri olacaq. Çünki bütün ölkənin dayanıqlı inkişafının təmin edilməsi üçün deputat korpusu regionların problemlərini dərk etməlidir, onları üzə çıxarmalıdır və hökumətə, ictimaiyyətə çatdırmaqla onların həllinə kömək etməlidir. Bir daha sağ olun. Sizi görməyimə şadam.

# Azərbaycan dövləti seçkilərin ədalətli və demokratik keçirilməsi üçün hər cür şərait yaratmışdı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da MDB-nin müşahidə missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminskini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda keçirilən parlament seçkilərində xeyli sayda müşahidəçinin iştirak etməsinin önəmi vurğulandı, MDB-dən olan müşahidəçilərin seçkilərin yüksək səviyyədə təşkil olunduğu, qanun pozuntusunun qeydə alınmadığı, bütövlükdə seçki prosesinin şəffaf, demokratik və rəqabətlilik prinsipi şəraitində, Azərbaycan qanunvericiliyinə tam uyğun şəkildə keçirildiyi bildirildi.



Prezident İlham Əliyev Azərbaycanda keçirilən parlament seçkilərində MDB müşahidəçilərinin iştirakına görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı ölkəmizdə keçirilən parlament seçkilərinin Azərbaycanda bütün sahələri əhatə edən genişmiqyaslı islahatların tərkib hissəsi olduğu qeyd edildi, Azərbaycan dövləti tərəfindən bu seçkilərin ədalətli və demokratik şəraitdə keçirilməsi üçün hər cür şəraitin yaradıldığı vurğulandı.

# Demokratiyanın növbəti təntənəsi

*Əvvəli 1-ci səh.*

Belə ki, Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqası ABŞ-ın “AJF&Associates İnc.” təşkilatı ilə, “İnsan Hüquqları XXI əsr - Azərbaycan” Fondu Fransanın “Opinion Way” Sosioloji Tədqiqatlar İnstitutu ilə birgə, həmçinin “Rəy” Monitorinq Mərkəzi “exit poll” keçirdilər. Hər bir təşkilatın keçirdiyi sorğunun nəticəsi MSK-nın nəticələri ilə üst-üstə düşdü.

Seçkiləri 78 minə yaxın yerli, o cümlədən 883 nəfər xarici müşahidəçi izlədi. Xarici müşahidəçilər 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edirdilər. Parlament seçkilərini işıqlandırmaq üçün kütləvi informasiya vasitələri üçün də hər cür şərait yaradılmışdı. Hər bir mətbuat işçisi seçkiləri işıqlandırmaq imkanına malik idi. O cümlədən 132 xarici kütləvi informasiya vasitəsinin 199 nəfər təmsilçisi seçkini işıqlandımaq üçün akkreditasiyadan keçmişdi.

Beynəlxalq və yerli müşahidəçilər də seçkidən sonra verdikləri açıqlamalarda seçkiqabağı dövrdə heç bir pozuntunun olmadığını, bütün namizədlər, siyasi partiyalar üçün lazımi şəraitin yaradıldığını bəyan etdilər. Seçkini izləmək üçün ölkəmizdə akkreditə olunan xarici kütləvi informasiya vasitələri də parlament seçkilərinə geniş yer ayırmaqla onun demokratik və şəffaf keçirildiyini bütün dünyaya yaydılar.

*Beləliklə, son parlament seçkilərinin nəticələri bütün xarici müşahidə missiyaları, xarici KİV tərəfindən yüksək qiymətləndirildi. Bütün rəylərdə, informasiyalarda seçkilərin olduqca ədalətli və şəffaf keçirildiyi, ölkəmizin demokratik dəyərlər yolu ilə inkişaf etdiyi birmənalı şəkildə öz əksini tapdı. Bütövlükdə, bu seçkilər demokratik mühitdə, azad və şəffaf keçirildi, xalqın iradəsini ifadə etmək kimi fundamental vəzifə yerinə yetirildi, vətəndaşlar öz iradələrini növbəti dəfə ifadə etdilər.*

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# XİN: “Parlament seçkiləri Azərbaycanın demokratik inkişafı yolunda növbəti önəmli mərhələni təşkil edir”

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi fevralın 9-da ölkəmizdə keçirilən parlament seçkiləri ilə bağlı bəyanat yayıb.

Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilir.

Bəyanatda deyilir: “2020-ci il fevralın 9-da Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər keçirilib. Seçkilər Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi və ölkəmizin beynəlxalq öhdəliklərinə tam uyğun olaraq baş tutub.

Ölkə üzrə 5573 seçki məntəqəsi yaradılıb və Mərkəzi Seçki Komissiyasının ilkin məlumatına əsasən, seçicilərin 47,81 faizi öz səsvermə hüququndan istifadə edib.

Azərbaycanda mövcud 125 seçki dairəsindən 7-nin Ermənistanın təcavüzü nəticəsində ərazisi tamamilə, 3-nün isə qismən işğal edilmiş rayonlarda yerləşməsi səbəbindən həmin ərazilərdən didərgin salınmış məcburi köçkünlərin konstitusion səsvermə hüquqlarından istifadə etmələri üçün ölkəboyu 523 seçki məntəqəsi yaradılıb. Bu, həmçinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun seçki müşahidə missiyasının 2020-ci il 29 yanvar tarixli aralıq hesabatında əks olunub. Azərbaycanın işğal altındakı ərazilərindən qovulan və doğma yurdlarında səsvermədən məhrum olan məcburi köçkünlərimiz öz səsvermə hüquqlarını onlar üçün təşkil edilmiş bu seçki məntəqələrində həyata keçiriblər. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Xankəndi və Şuşa seçki dairələri üzrə rəqabətli seçkilərdə iştirak edib və beləliklə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin seçilmiş nümayəndələrini təşkil edir. Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsindəki erməni mənşəli Azərbaycan vətəndaşları Mərkəzi Seçki Komissiyası, eləcə də Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması tərəfindən parlament seçkilərində səsvermədə iştiraka dəvət olunublar.

Parlament seçkilərində indiyədək qeydə alınmış ən yüksək sayda - 1314 namizəd mübarizə aparıb ki, bu da namizədlərin qeydiyyatı prosesinin əhatəli və ədalətli olduğunun, eləcə də rəqabətli seçki mühitinin göstəricisidir. Habelə builki seçkilər ötən seçkilərlə müqayisədə qadın namizədlərin sayının əhəmiyyətli dərəcədə artması, 19 siyasi partiyanın təmsil olunması ilə geniş plüralizmin təmin edilməsi kimi məqamlarla əlamətdar olub.

Seçki prosesi Azərbaycan tərəfinin dəvəti ilə ölkəyə gəlmiş 883 beynəlxalq və 78 minə yaxın yerli müşahidəçi tərəfindən izlənilib. Eyni zamanda seçkilərin müşahidəsinə 132 xarici KİV-dən 199 nümayəndə qatılıb. Həm beynəlxalq, həm də yerli müşahidəçilərin mütləq əksəriyyəti seçkilərin azad, demokratik və şəffaf şəraitdə keçdiyini təsdiq ediblər. Seçkilərlə bağlı hər hansı nöqsanlar qeydə alınıbsa, onlar aidiyyəti üzrə ciddi araşdırılacaqdır.

Fevralın 9-da keçirilmiş parlament seçkiləri Azərbaycan Respublikasının demokratik inkişafı yolunda növbəti önəmli mərhələni təşkil edir”.

***AZƏRTAC***

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Məzahir Pənahovun sədrliyi ilə fevralın 10-da Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar MSK-ya daxil olmuş müraciətə baxılıb. Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün daxil olan müraciət qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada, operativ şəkildə baxıldıqdan sonra müvafiq qərar qəbul olunub.

Seçkilərin müşahidəsində iştirak edən beynəlxalq təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

## QƏRAR № 22/129

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 10 fevral 2020-ci il tarixli 55 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə Azərbaycan Ümid Partiyasının (Ümid Partiyası) səlahiyyətli nümayəndəsi Əliyev Taleh Məmməd oğlu 2020-ci il fevralın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək 35 saylı Xətai üçüncü seçki dairəsinin əksər seçki məntəqələrində bəzi qanun pozuntularının olduğunu iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə əsasən seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Əliyev Taleh Məmməd oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 fevral 2020-ci il 55 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 35 saylı Xətai üçüncü seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*10.02.2020*

# Beynəlxalq təşkilatların sorğuları reallığı əks etdirdi

## Parlament seçkilərində “exit-poll” keçirən qurumlarla MSK-nın nəticələri seçkilərin obyektiv keçirildiyini təsdiqlədi

Azərbaycan Respublikasının VI çağırış Milli Məclisinə seçkilər uğurla başa çatdı. Ölkə üzrə ümumi seçici fəallığı hava şəraitinin pis olmasına baxmayaraq, 47,81 faiz oldu. 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edən 883 beynəlxalq müşahidəçi seçkilərlə əlaqədar akkreditasiyadan keçmişdi. Göründüyü kimi, beynəlxalq müşahidəçilər həm say, həm də coğrafi baxımdan kifayət qədər əhatəli idi. Parlament seçkilərinin gedişini 47 ölkəni təmsil edən 132 beynəlxalq KİV-in 199 təmsilçisi işıqlandırdı.

Ümumiyyətlə, hər seçki Azərbaycanın seçki praktikasında tətbiq edilən və prosesin demokratikliyinə xidmət edən yeniliklərlə əlamətdar olur. Bu cür yeniliklərin tətbiqi zamanı xüsusən qeyri-hökumət təşkilatlarına yer verilməsi, onların öz layihələrini həyata keçirə bilmələri üçün lazımi şəraitin yaradılması Azərbaycan hakimiyyətinin seçkilərin demokratik keçirilməsinə olan marağının bariz təcəssümüdür. Məsələn, ilk dəfə olaraq 2005-ci ilin parlament seçkilərində bir sıra xarici təşkilatlar tərəfindən seçicilərin seçki məntəqəsində səs verib çıxdıqdan sonra kimə səs vermələrini öyrənmək məqsədilə sorğu - “exit-poll” keçirildi. Bundan sonra ölkədə keçirilən bütün seçkilərdə bu sosialoji tədqiqatı həyata keçirmək üçün Mərkəzi Seçki Komissiyasına müraciət edən beynəlxalq və yerli təşkilatlara müsbət cavab verildi. Elə budəfəki parlament seçkilərində də “exit-poll”un keçirilməsi üçün hər cür şərait yaradılmışdı.

Parlament seçkilərində Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqası “AJF&Associates İnc.” təşkilatı (ABŞ) ilə birgə, “Rəy” Monitorinq Mərkəzi, “İnsan Hüquqları XXI Əsr - Azərbaycan” Fondu və Fransanın “Opinion Way” Sosioloji Tədqiqatlar İnstitutu (birgə) “exit poll” keçirəcək qurum kimi qeydə alınmışdı. Yəni 3 təşkilat seçkilərdə “exit-poll” keçirdi.

Qeyd edək ki, “exit-poll” Mərkəzi Seçki Komissiyasının nəticələri rəsmən elan etməsindən əvvəl ilkin nəticələri əldə etmək imkanını yaradır, səsvermənin nəticələrinə ictimai nəzarəti həyata keçirir. Fevralın 9-da seçkilər başa çatdıqdan 2 saat sonra “exit-poll” keçirən təşkilatlar apardıqları sorğuların cavablarını elan etdilər. ABŞ-ın “Artur J.Finkelstein and Associates” təşkilatı və Fransanın “Opinion Way” Sosioloji Araşdırmalar İnstitutunun “İnsan Hüquqları XXI əsr-Azərbaycan” Fondu ilə birgə keçirdikləri “exit-poll”un nəticələri, demək olar ki, üst-üstə düşdü.

ABŞ-ın “Artur J.Finkelstein and Associates” təşkilatı 47 dairə üzrə 2106 nəfər seçicinin fikrini öyrənib. Toplanan məlumatlar gün ərzində 3 dəfə ABŞ-a, yəni baş ofisə göndərilib.

“Opinion Way” Sosioloji Araşdırmalar İnstitutu ölkə üzrə 236 seçki məntəqəsində “exit poll” keçirib. Ümumilikdə 10 119 səs verən şəxs sorğuya cəlb edilib. Seçici fəallığı 55,06 faiz olub.

Mərkəzi Seçki Komissiyası da seçkilərin ilkin nəticəsini elan edərkən seçici fəallığının 47,81 faiz olduğunu bəyan etdi. 3 təşkilatın həyata keçirdiyi “exit-poll”un nəticəsi ilə, demək olar ki, MSK-nın rəsmi nəticəsi arasında cüzi fərq var idi.

Beləliklə, bu seçkilərdə də Yeni Azərbaycan Partiyası qalib gəldi. YAP 123 namizədlə qatıldığı seçkidə böyük üstünlük əldə etdi.

Bununla bağlı YAP-ın yaydığı məlumatda qeyd edilirdi ki, “daha güclü Azərbaycan naminə” çağırışı ilə seçkilərə qatılan YAP 123 dairədə qeydiyyatdan keçmiş namizədi ilə geniş və əhatəli seçki kampaniyası aparmağa müvəffəq olub. Partiyanın sədri, Prezident İlham Əliyevin xalq arasında yüksək şəxsi nüfuzu, həyata keçirdiyi siyasətin möhtəşəm nəticələri, ölkə iqtisadiyyatının sürətli inkişafı, əhalinin rifahının yüksəlməsi, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmlənməsi, uğurla davam edən genişmiqyaslı islahatlar YAP-ın sözügedən seçkilərdə istinad etdiyi əsas məqamlar olub.

Qeyd etmək yerinə düşər ki, seçkilərə şəxsi keyfiyyətləri sayəsində insanlar arasında böyük nüfuz qazanmış layiqli namizədləri ilə qatılan Yeni Azərbaycan Partiyasının seçki kampaniyasının uğurla həyata keçirilməsinə partiyanın çoxsaylı üzvləri və könüllüləri də böyük töhfə veriblər.

Seçkilərin gedişatını izləyən bir sıra mötəbər beynəlxalq sorğu mərkəzlərinin verdikləri açıqlamalar da YAP-ın Milli Məclisə seçkilərdə əhəmiyyətli uğurlar qazandığını söyləməyə əsas verir. YAP hesab edir ki, Milli Məclisin yeni tərkibi ölkəmizdə həyata keçirilən islahatlara öz dəyərli töhfəsini verəcək.

Beləliklə, VI çağırış Milli Məclisə keçirilən seçkilər Azərbaycanın demokratik inkişafa nə qədər sadiq olduğunu bir daha göstərdi. Ölkəmizə gələn bütün beynəlxalq müşahidəçilər seçkilərin yüksək səviyyədə keçirildiyini qeyd etdilər. Beynəlxalq müşahidəçilər seçkilərin Azərbaycan xalqının iradəsini ifadə etdiyini də söylədilər. Bu, bir daha onu göstərir ki, xalq ölkədə aparılan siyasəti bəyənir, dəstəkləyir və seçkilər vasitəsilə öz fikrini ifadə edir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Rövzət QASIMOV: “Seçki prosesi ümumilikdə rəvan, qanunvericiliyin tələblərinə uyğun şəkildə keçib”

Mərkəzi Seçki Komissiyası (MSK) parlament seçkiləri ilə bağlı ilkin mərhələdə dünəndən bütün proseslərə yekun vurub. MSK hazırda dairə seçki komissiyalarının protokollarını və digər lazımi sənədlərini qəbul etməyə başlayıb. Qanunvericiliyin tələbinə əsasən, bütün bu sənədlər iki gün müddətində qəbul olunmalıdır və bundan sonra Mərkəzi Seçki Komissiyası seçkilərin nəticələri ilə bağlı ilkin məlumatları açıqlayacaq.

AZƏRTAC xəbər verir ki, bunu fevralın 10-da jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) sədr müavini Rövzət Qasımov bildirib.

R.Qasımov qeyd edib ki, MSK nəinki sosial şəbəkələrdə yayılmış, eyni zamanda, digər mənbələrdən daxil olan bütün məsələləri ətraflı şəkildə araşdıracaq və bununla bağlı qanunvericiliyin tələbinə uyğun olaraq addımlar atılacaq. Hüquqi baxımdan baş vermiş bütün hallarla bağlı adekvat tədbirlər görüləcək. Mərkəzi Seçki Komissiyası hər zaman seçicilərin və namizədlərin tərəfində olan bir qurumdur. Bu dəfə də biz namizədlərin mövqeyinin müdafiə olunması üçün bütün məsələləri həmişə olduğu kimi kifayət qədər diqqətlə araşdıracağıq. O da istisna deyil ki, Mərkəzi Seçki Komissiyası baş verən hallarla bağlı araşdırma nəticəsində konkret olaraq ciddi qanun pozuntuları aşkarladığı halda kifayət qədər kəskin, ciddi addımlar atacaq. Sosial şəbəkələrə gəldikdə isə dünən gün ərzində paylaşılan videogörüntülər təhlil olunub və gün ərzində bununla bağlı araşdırmalar aparılıb. Bu məlumatlar araşdırıldıqdan sonra əgər həmin hallar baş veribsə və həmin halların baş verməsi hər hansı bir hüquqi problem yaradırsa ciddi, kəskin addımlar atılacaq.

R.Qasımov deyib ki, Milli Məclisə seçkilərlə əlaqədar hələlik Mərkəzi Seçki Komissiyasına rəsmi şikayət daxil olmayıb. Rəsmi şikayət daxil olmasa da, hər hansı hal olan zaman MSK toplanacaq və öz fikrini bildirəcək. Əgər 2015-ci ildə keçirilən parlament seçkiləri



ilə bağlı 767 deputatlığa namizəd olubsa, builki seçkilərdə namizədlərin sayı 1314 nəfər olub. Builki təşviqat kampaniyasında kifayət qədər fərqli mühit mövcud olub. Bütün namizədlər lazımi vasitələrdən təşviqat kampaniyasında istifadə ediblər. Namizədlər tərəfindən bəzən qanunvericilikdə nəzərdə tutulmayan üsullardan da istifadə olunub. Biz seçki qanunvericiliyinin ruhunu əsas götürərək namizədlərin sərbəst və rahat şəkildə öz seçiciləri ilə təmasda olmaq, ismarıclarını çatdırmaq imkanlarına malik olmalarını bir məqsəd kimi qarşımıza qoymuşduq. Builki parlament seçkiləri həm namizədlərin qeydiyyatı, həm də namizədlərin ismarıclarını seçicilərinə çatdırmaları üçün mövcud olan imkanlar baxımından kifayət qədər zəngin seçkilər idi.

Rövzət Qasımov qeyd edib ki, MSK-nın “Qaynar xətti”nə ciddi önəm veririk. Həm sosial şəbəkələr, həm “Qaynar xətt”, həm digər vasitələrlə Mərkəzi Seçki Komissiyasına daxil olan məlumatlar MSK-nın araşdırma və addım atması üçün bir mənbə, bir başlanğıc rolunu oynayır. Bu dəfə də ənənəyə sadiq qalınacaq və bütün bu addımlar atılacaq.

Qeyd edilib ki, parlament seçkiləri ilə bağlı Mərkəzi Seçki Komissiyasının “Qaynar xətt”inə 280-ə yaxın müraciət daxil olub. Müraciətlərin bir qismi texniki sorğu xarakterli olub. “Bununla bərabər, MSK üçün araşdırma başlamağa səbəb olacaq hallar barədə müəyyən məlumatlar da var. “Qaynar xətt”ə daxil olan məlumatlar rəsmi olmasa da, MSK bütün məlumatlara tam ciddiliyi ilə diqqətlə yanaşır. MSK-ya daxil olan hər xırda eyham belə ətraflı şəkildə araşdırılır. Yaxın günlərdə MSK-nın araşdırmalarının nəticələrinə adekvat olan addımların, hətta kəskin addımların şahidi ola bilərsiniz”, - deyə sədr müavini bildirib

MSK-nın sədr müavini qeyd edib ki, iddia olunan qanun pozuntuları araşdırılacaq: “Bunlar öz təsdiqini tapdığı halda, MSK kifayət qədər ciddi və kəskin addımlar atmağa hazırdır. Burada nəticələrin etibarsız sayılması, hətta cinayət kimi səciyyələndirilə bilən hallar aşkarlanarsa, MSK tərəfindən bununla bağlı müvafiq qurumlara müraciətlər ünvanlanacaq. Çünki MSK-nın ən ümdə məqsədi namizədlərin bərabər şərtlərlə bu seçki kampaniyasında iştirakı və ədalətli rəqabət nəticəsində hər kəsin öz səsinə sahib olmasıdır”.

Sədr müavini deputatlığa namizədin vəkilinin ölməsinə də münasibət bildirib: “101 saylı Göygöl-Daşkəsən seçki dairəsində deputatlığa namizədin vəkilinin ölməsi ilə bağlı hələlik konkret fikir bildirmək çətindir. Bütün bu məsələlər araşdırılacaq və bu barədə məlumatlar, ilk növbədə, KİV-ə çatdırılacaq”.

Rövzət Qasımov onu da qeyd edib ki, ümumilikdə seçki prosesi rəvan, qanunvericiliyin tələblərinə uyğun şəkildə keçib. Ancaq milyonlarla insanın cəlb edildiyi prosesi neqativ hallar olmadan təsəvvür etmək mümkün deyil. Ən vacibi hər hansı neqativ halın baş verib-verməməsi deyil. Ən vacibi odur ki, hər hansı xoşagəlməz hal olan zaman ona adekvat cavab göstərilsin, müvafiq tədbir görülsün. MSK da bu addımları atacaq.

# RF XİN: “Seçkilərin müvəffəqiyyətlə keçirilməsi münasibətilə azərbaycanlı dostlarımızı təbrik edirik”

Seçkilərin müvəffəqiyyətlə keçirilməsi münasibətilə azərbaycanlı dostlarımızı təbrik edirik. Bu seçkilər Azərbaycan rəhbərliyinin ölkənin ictimai-siyasi həyatının demokratikləşməsinə və modernləşdirilməsinə yönəldilmiş islahatlarını əhalinin dəstəklədiyini göstərir.

AZƏRTAC xəbər verir ki, bu sözlər Rusiya Xarici İşlər Nazirliyinin (XİN) İnformasiya və mətbuat departamentinin RF XİN-in saytında yerləşdirilmiş şərhində yer alıb.

Şərhdə deyilir ki, fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilib. Azərbaycan Mərkəzi Seçki Komissiyasının ilkin məlumatına görə, Prezident İlham Əliyevin başçılıq etdiyi hakim Yeni Azərbaycan Partiyası seçkilərdə liderlik edir.

Milli Məclisdəki 125 deputat yeri uğrunda 1314 namizəd mübarizə aparıb ki, bu da əvvəlki seçkilərlə müqayisədə təqribən iki dəfə çoxdur.

Seçkiləri çoxsaylı yerli (77 mindən çox) və xarici (883), o cümlədən Rusiyadan müşahidəçilər izləyib. Müstəqil Dövlətlər Birliyinin və Şanxay Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin müşahidəçilərinin fikrincə, seçkilər milli qanunvericiliyin tələblərinə müvafiq keçirilib, vətəndaşların seçki hüquqlarının kobud şəkildə pozulması faktları müəyyən olunmayıb.

RF XİN-dən təəssüflə bildiriblər ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosundan, ATƏT-in Parlament Assambleyasından, habelə Avropa Şurasının Parlament Assambleyasından olan müşahidəçilər reallığa uyğun olmayan qərəzli və subyektiv yekun rəylər bildiriblər.

Şərhdə deyilir: “Ümid edirik ki, Milli Məclisin deputat korpusunun yeni tərkibi ilə Rusiya Federasiyasının Federal Məclisi arasında sıx və konstruktiv qarşılıqlı fəaliyyət Rusiya ilə Azərbaycan arasında ənənəvi dostluq və strateji tərəfdaşlıq ruhunda davam edəcək”.

# XİN: “Azərbaycan ədalətli və konstruktiv əsasda beynəlxalq tərəfdaşlar ilə əməkdaşlığını davam etdirməyə hazırdır”

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, ATƏT Parlament Assambleyası və Avropa Şurası Parlament Assambleyasının nümayəndələrindən ibarət Beynəlxalq Seçki Müşahidə Missiyasının (BSMM) Azərbaycan Respublikası Milli Məclisinə 2020-ci il fevralın 9-da keçirilmiş növbədənkənar seçkilərlə bağlı ilkin qənaətləri barədə bəyanatı ilə tanış olduq.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunub. Bəyanatda deyilir: “Azərbaycan hökuməti məmnuniyyətlə qeyd edir ki, növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün dəvət olunan bütün beynəlxalq təşkilatlar, o cümlədən BSMM-in tərkibində birləşən təsisatlar dəvəti qəbul edərək seçkilərdə müşahidə missiyası ilə iştirak ediblər. Azərbaycan tərəfinin dəvətini qəbul edərək seçki prosesində müşahidə missiyaları ilə təmsil olunan və bu dövrdə Azərbaycanın aidiyyəti qurumları ilə əməkdaşlıq edən bütün beynəlxalq təşkilatlara öz təşəkkürümüzü bildiririk.

BSMM-in ilkin qənaətlər bəyanatında namizədlərin qeydiyyatı prosesinin əhatəliliyi, seçki prosesinin yaxşı idarə olunması, Mərkəzi Seçki Komissiyasının fəaliyyətində şəffaflıq kimi müsbət məqamların, eləcə də çoxsaylı məcburi köçkünlərin ortaya çıxmasına səbəb olmuş Ermənistanla münaqişə ilə əlaqədar, Azərbaycanın nəzarətindən tam və qismən kənar olan 10 seçki dairəsində seçkilərin təşkilinin mümkünsüzlüyünün, məcburi köçkünlərin seçki hüququnun təmin olunması sahəsində əhəmiyyətli addımların atılmasının təsbit olunmasını təqdir edirik.

BSMM-in bəyanatında çatışmazlıqlar kimi təqdim edilən məqamların bəziləri ilə razı olmasaq da, onların əsasən prosedur və təşkilati səciyyəli olduğundan qeyd götürürük. Mərkəzi Seçki Komissiyasının sədrinin artıq bəyan etdiyi kimi, iddia olunan və özünü büruzə verən pozuntular müfəssəl şəkildə araşdırılacaq və qanun çərçivəsində bütün zəruri tədbirlər həyata keçiriləcək.

Habelə qeyd edirik ki, BSMM-in bəyanatında öz əksini tapmış məsələlər, eləcə də 2 ay sonra ATƏT/DTİHB tərəfindən dərc ediləcək yekun hesabat Azərbaycan hakimiyyət qurumları tərəfindən ətraflı şəkildə təhlil ediləcək.

Bir daha bəyan edirik ki, bu seçkilər Azərbaycan xalqının iradəsini ifadə edir və ölkəmizin demokratik inkişafı yolunda növbəti uğurlu addımdır.

Azərbaycan Respublikası ədalətli və konstruktiv əsasda beynəlxalq tərəfdaşlar, o cümlədən ATƏT/DTİHB ilə əməkdaşlığını davam etdirməyə hazırdır”.

# Sinxua: “Azərbaycanda hakim partiya parlamentdə üstünlüyünü qoruyub saxlayır”

Çin Xalq Respublikasının kütləvi informasiya vasitələri Azərbaycanda keçirilmiş parlament seçkilərinə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, dünyanın ən nüfuzlu xəbər agentliklərindən biri olan Sinxuanın “Azərbaycanda hakim partiya parlamentdə üstünlüyünü qoruyub saxlayıb” sərlövhəli xəbərində Mərkəzi Seçki Komissiyasının (MSK) ilkin nəticələrinə əsasən, Yeni Azərbaycan Partiyasının Milli Məclisdə azı 65 yer qazandığı qeyd olunub. Bildirilib ki, budəfəki parlament seçkisində rekord sayda namizəd deputat mandatı uğrunda mübarizə aparıb. Seçkiləri 77 mindən çox yerli, 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edən 883 beynəlxalq müşahidəçi izləyib.

Rəsmi “Jenmin Jibao” qəzetində “Azərbaycanda növbədənkənar parlament seçkilərində səsvermə başlayıb” başlıqlı materialda ölkəmizdə 125 dairə üzrə 5573 məntəqədə səsvermə keçirildiyi, səsvermə hüququ olan vətəndaşların sayının 5 milyon 329 mindən çox olduğu bildirilib.

Çin Mərkəzi Televiziyasının (CCTV) internet səhifəsində yerləşdirilən “Azərbaycanın hakim partiyası növbədənkənar parlament seçkilərində liderlik edir” adlı geniş materialda Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyasının (YAP) Milli Məclisdə yerlərin əksəriyyətini qazandığı qeyd edilir. MSK-nın sədri Məzahir Pənahova istinadla bildirilir ki, ilkin nəticələrə əsasən 125 yerlik parlamentdə YAP ən azı 65 mandat qazanıb.

Azərbaycanda həyata keçirilən kadr islahatlarından da bəhs olunan məqalədə vurğulanır ki, parlamentin buraxılması və yeni seçkilərin keçirilməsi də dövlət başçısının islahatlar siyasətinə dəstəyi əks etdirir.

Dünya üzrə 100 milyon oxucusu olan nüfuzlu “China Daily” qəzetinin internet səhifəsində mövzu ilə bağlı materialda Azərbaycan tarixində ilk dəfə növbədənkənar parlament seçkilərinin keçirildiyi qeyd olunur. Bildirilir ki, Azərbaycan parlamenti ötən ilin dekabrında qanunverici orqanda çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvlərinin təşəbbüsü ilə Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi ilə bağlı ölkə Prezidentinə müraciət olunması barədə qərar verib.

# BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR AZƏRBAYCANIN SEÇKİ TƏCRÜBƏSİNİ YÜKSƏK DƏYƏRLƏNDİRDİLƏR

## *Britaniyalı müşahidəçilər:* "Seçki prosesində yüksək texnologiyalardan istifadə edilirdi"

Azərbaycanda keçirilən parlament seçkilərini Böyük Britaniyanın müşahidə missiyası da izləyib. AZƏRTAC xəbər verir ki, missiyanın üzvləri apardıqları müşahidələrin nəticələri ilə bağlı fevralın 10-da mətbuat konfransı keçiriblər.



"Biz artıq beşinci dəfədir ki, Azərbaycanda seçkiləri müşahidə edirik. Prezident seçkilərində də müşahidəçi qismində iştirak etmişdik. Bizdə yüksək təəssüratı daha çox seçkidən əvvəl müşahidəçilərin hüquq və vəzifələrinin əks olunduğu sənədlər yaratdı", - deyə nümayəndə heyətinin ortaq açıqlamasında bildirilir.

Britaniyalı müşahidəçilərin açıqlamasında, həmçinin deyilir: "Siyahıda seçki bülletenlərində namizədlərin adları qarşısında qısa məlumat var idi. Düşünürük ki, Britaniya da daxil olmaqla bir çox ölkələrdə bu təcrübə tətbiq olunmalıdır. Seçki prosesində yüksək texnologiyalardan istifadə edilirdi. Prosesin pozulmasına imkan verilmirdi. Qadın müşahidəçilərin sayı kişilərdən daha çox idi. 800-dən çox xarici müşahidəçinin dəvət olunması isə hökumətin prosesə nə dərəcədə fəal hazırlığının göstəricisidir".

## *TÜRKPA-nın müşahidə missiyası:* "Azərbaycanda parlament seçkiləri tam demokratik, şəffaf keçdi"

Fevralın 10-da TÜRKPA-nın müşahidə missiyası Milli Məclisə seçkilərlə əlaqədar mətbuat konfransı keçirib.




AZƏRTAC xəbər verir ki, təşkilatın baş katibi Altınbek Mamayusupov parlament seçkilərinin heç bir qanun pozuntusu olmadan keçirildiyini bildirib.

Missiyanın rəhbəri İsmət Uçma müşahidə apardıqları seçki məntəqələrində fəallığın olduğunu vurğulayıb. O qeyd edib ki, namizədlər üçün əlverişli şərait yaradılmışdı. Bu da ədalətli və şəffaf seçkilərin keçirildiyini təsdiqləyir. Məntəqələrdə seçicilər heç bir təsirə məruz qalmadan azad şəkildə seçimlərini edirdilər: "Müşahidə apardığımız seçki məntəqələrində texniki tərəfdən və insan amili nöqteyi-nəzərindən səsvermə prosesində hər hansı pozuntular görmədik. İnsanların məntəqələrə yüksək əhvali-ruhiyyə ilə səs verməyə gəlmələrini görmək çox maraqlı idi. Bizim üçün daha bir önəmli amil namizədlərin sayının çox olması idi. Namizədlərə təbliğat-təşviqat kampaniyası aparmaq və seçicilərlə görüş üçün bütün şərait yaradılmışdı. Müşahidələrimizin nəticəsi olaraq deyə bilərik ki, seçkilər tam demokratik, şəffaf keçdi. İsmət Uçma səfər zamanı Azərbaycanda keçirdikləri görüşlər barədə də məlumat verib.

## *GUAM müşahidəçiləri:* "Seçicilərin öz iradələrini sərbəst ifadə etmələri üçün hər cür şərait yaradılmışdı"

GUAM Parlament Assambleyasının müşahidə missiyası Milli Məclisə seçkilərlə əlaqədar müşahidələrinin nəticələrini açıqlayıb.




AZƏRTAC xəbər verir ki, missiyanın üzvü Mayran Zablotskiy seçkilərin tam demokratik şəraitdə keçdiyini bildirib. O, Bakının Nəsimi, Səbail, Yasamal rayonlarında yerləşən seçki dairələrinin məntəqələrində səsvermə prosesini izlədiklərini qeyd edib. Vurğulayıb ki, seçicilər heç bir təzyiqə məruz qalmadan öz seçimlərini edirdilər. Seçkilər beynəlxalq standartlara və Azərbaycan qanunvericiliyinə uyğun şəkildə keçirildi. Seçicilərin öz iradələrini sərbəst şəkildə ifadə etmələri üçün hər cür şərait yaradılmışdı. Məntəqələrdə heç bir pozuntu halı qeydə alınmadı. GUAM nümayəndə heyətinin ukraynalı üzvü Svyatoslav Yuraş da seçkilərin qanunauyğun şəkildə təşkil olunduğunu, qayda pozuntularına rast gəlmədiklərini qeyd edib. O, Azərbaycan xalqını uğurlu seçkilər münasibətilə təbrik edib.

## *Yaroslav HOLİK:* "Azərbaycanda seçkilər zamanı Çexiyada tətbiq edilməyən yeniliklərin şahidi olduq"

Çexiya parlamentinin müşahidə missiyası fevralın 10-da Milli Məclisə seçkilərlə əlaqədar mətbuat konfransı keçirib.




AZƏRTAC xəbər verir ki, Çexiya Deputatlar Palatasının üzvü Yaroslav Holik seçkiləri 16 məntəqədə müşahidə etdiklərini bildirib. O, məntəqələrdə yaradılan şəraitdən məmnun qaldıqlarını, müşahidələri zamanı qayda pozuntusu qeydə almadıqlarını vurğulayıb.

"Azərbaycanda seçkilər zamanı öz ölkəmizdə tətbiq olunmayan yeniliklərin də şahidi olduq. Azərbaycanda görmə qabiliyyəti olmayan seçicilər üçün bülletenlər Brayl əlifbası ilə hazırlanıb. Bu, onların digər vətəndaşlar kimi səsvermə hüquqlarından yararlanmasına imkan verir. Bununla yanaşı, seçicilərin barmaqlarının rəngsiz mürəkkəblə rənglənməsi onların təkrar səs vermələrinin qarşısının alınmasında, şəffaflığın təmin olunmasında mühüm rol oynayır. Seçki məntəqələrində veb-kameraların quraşdırılması da təqdirəlayiqdir. Bizim müşahidələrimiz çox yaxşı keçdi, heç bir qayda pozuntusuna rast gəlmədik", - deyə Y.Holik qeyd edib.

Missiyanın digər üzvü Kveta Matuşovska da müşahidələrinin nəticələrindən məmnun qaldığını, onlar üçün məntəqələrdə hər cür şəraitin yaradıldığını diqqətə çatdırıb.

## *QDİƏT PM-in müşahidə missiyası:* "Azərbaycanda azad və ədalətli seçki keçirildi"

Milli Məclisə seçkiləri Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) müşahidə missiyası da izləyib.




AZƏRTAC xəbər verir ki, fevralın 10-da missiyanın üzvləri müşahidələrinin nəticələri ilə bağlı mətbuat konfransı keçiriblər.

QDİƏT PM-in müşahidə missiyasının üzvü, türkiyəli deputat Camal Öztürk bildirib ki, Azərbaycanda demokratik, azad və ədalətli seçki keçirildi: "Qardaş Azərbaycanda parlament seçkilərində müşahidəçi kimi iştirak etdim. Müşahidələr apardığım zaman hər hansı neqativ hadisəyə rast gəlmədim. Azərbaycan xalqını təbrik edirəm. Bu seçkilər Azərbaycanın daha da inkişafı üçün yeni başlanğıcdır. Azərbaycan xalqı ən yaxşılarına layiqdir. Biz hər zaman Azərbaycanın yanında olmuşuq, bundan sonra da olacağıq".

QDİƏT PM-in baş katibi Asəf Hacıyev fevralın 9-da Bakıda 10-dan çox seçki məntəqəsində olduqlarını, heç bir pozuntu halına rast gəlmədiklərini bildirib: "Maştağa və Bilgəhdə də 10-a yaxın məntəqədə olduq. Buralarda fəallıq daha çox idi".

Baş katib deyib ki, hər bir seçki demokratiyanın ölçüsüdür. Dünənki seçkilər nəinki Avropa, hətta dünya standartlarına uyğun keçirildi. Soyuq havaya baxmayaraq, səsvermədə 45 faizə yaxın seçici iştirak etdi

QDİƏT PM-in müşahidə missiyasının üzvü, rusiyalı deputat Maksim Şablikin deyib ki, Azərbaycanda seçkilər demokratik keçirdi: "Ən əsası, məndə seçkilərin təhlükəsiz, sakit şəraitdə keçməsi ilə bağlı çox gözəl təəssürat yarandı. Vətəndaşların çox sakit və azad şəkildə seçkilərdə iştirak etdiyini gördüm. Seçkilərin demokratik keçirilməsini çox yüksək qiymətləndirirəm. Azərbaycanda namizədlərin sayına baxanda başa düşmək olur ki, Milli Məclis ölkənin həyatında nə qədər böyük rol oynayır. Düşünürəm ki, bu seçkilər ilk növbədə Azərbaycan xalqının qələbəsidir".

Parlament Məclisinin müşahidə missiyasının digər üzvü, bolqarıstanlı deputat Petar Kanev bildirib ki, o, Azərbaycanda üçüncü dəfədir seçkilərdə müşahidəçi kimi iştirak edir. "Hava soyuq olsa da, seçkiyə maraq çox yüksək idi. Seçkilərin şəffaf keçirilməsinin şahidi oldum. Azad və demokratik seçkilər münasibətilə Azərbaycan xalqını təbrik edirəm", - deyə o əlavə edib.

QDİƏT PM-in müşahidə missiyasının üzvü, gürcüstanlı deputat Ramaz Nijolaişvili də seçkilərin demokratik şəraitdə keçdiyini vurğulayıb.

## *Gürcüstanlı müşahidəçi:* "Azərbaycan xalqı öz seçimi ilə dövlətçiliyə olan dəstəyini bir daha göstərdi"





"Seçki günü biz 11 seçki məntəqəsində səsvermənin gedişini izlədik. Hər məntəqədə seçkilərin şəffaf şəraitdə keçirildiyi seçicilər, müxtəlif partiyaların nümayəndələri və komissiya üzvləri tərəfindən qeyd olunurdu".

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan parlamentinin müşahidə missiyasının üzvü, Gürcüstan parlamentinin deputatı Savalan Mirzoyev parlament seçkilərində apardıqları müşahidələrlə bağlı keçirdiyi mətbuat konfransında söyləyib.

Deputat qeyd edib ki, Azərbaycan Gürcüstan üçün əsas tərəfdaşlardan biridir. Azərbaycanda gedən proseslər bizim üçün böyük əhəmiyyət daşıyır.

"Azərbaycan xalqı öz seçimi ilə dövlətçiliyə olan dəstəyini bir daha göstərdi. Biz Gürcüstan dövləti olaraq Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini hər zaman dəstəkləyirik", - deyə o əlavə edib.

## *Valeriy SİMULİK:* "Namizədlərin sayının çoxluğu siyasi rəqabət üçün yaradılan gözəl şəraitdən xəbər verirdi"

Litvadan olan müşahidəçi, Litva-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Valeriy Simulik fevralın 9-da Milli Məclisə keçirilən seçkilərin nəticələri ilə əlaqədar mətbuat konfransı keçirib.



AZƏRTAC xəbər verir ki, Valeriy Simulik Azərbaycanda seçkilərin şəffaf qaydada keçdiyini bildirib.

Azərbaycanda bir neçə dəfə seçkilərdə müşahidə apardığını deyən müşahidəçi qeyd edib ki, demokratik seçki bütün cəmiyyətlər üçün bir imtahandır. Parlament seçkilərini bölgələrdə yaradılan seçki məntəqələrində izlədiklərini diqqətə çatdıran litvalı müşahidəçi bildirib: "Dünən 15 seçki məntəqəsinə baş çəkdik. Cocuq Mərcanlı kəndində də olduq. Müşahidəçilər yalnız partiya üzvləri deyildi, bitərəf şəxslər də var idi. Hər dairədə 10-dan çox namizədin olması siyasi rəqabət üçün yaradılan gözəl şəraitdən xəbər verirdi. Məntəqələrin birində namizədin müşahidəçi kimi iştirak etdiyinin şahidi olduq. Bu, bizdə mümkün deyil. Lakin Azərbaycan qanunvericiliyi buna imkan verir".

V.Simulik namizədlərin təxminən 20 faizinin qadınlar olmasını müsbət hal kimi dəyərləndirib.

## *Türk Şurası:* "Seçki prosesi tam qanunauyğun şəkildə aparıldı"

Fevralın 10-da Türk Şurasının müşahidə missiyası Azərbaycanda keçirilən parlament seçkilərindəki müşahidələrinin nəticələrini açıqlayıb. AZƏRTAC xəbər verir ki, təşkilatın baş katibinin müavini Ömər Kocaman parlament seçkilərinin heç bir qanun pozuntusu olmadan keçirildiyini bildirib. O vurğulayıb ki, seçki prosesi tam qanunauyğun şəkildə aparıldı. Namizədlər üçün əlverişli şərait yaradılmışdı. Bununla yanaşı, siyasi partiyalar da çoxluq təşkil edirdi. Bu da ədalətli və şəffaf seçkilərin keçirildiyini təsdiqləyir. Məntəqələrdə seçicilər heç bir təsirə məruz qalmadan azad şəkildə seçimlərini edirdilər.




Baş katib nümayəndə heyətinə Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan olan nümayəndələrin daxil olduğunu bildirib və əlavə edib ki, seçki prosesini iki missiyaya bölünərək müşahidə ediblər: "Seçki məntəqələrində bizə hər cür məlumat verildi, müşahidələrimiz üçün lazımi şərait yaradıldı. Namizədlərin sayının çox olması seçkiyə inamdan xəbər verir".

Ömər Kocaman seçkinin uğurla başa çatmasına görə Azərbaycan xalqını təbrik edib.

"Azərbaycanda parlament seçkilərinin tam demokratik keçirildiyini əminliklə deyə bilərik. Azərbaycan xalqı üçün xeyirli və uğurlu olsun. Azərbaycanın son 20 ildəki inkişafı göz qabağındadır. Bütün dünya bu inkişafı görür", - deyə o vurğulayıb.

## *Monteneqrolu müşahidəçi:* "Seçkilərdə Azərbaycan xalqı qalibdir"

"Azərbaycanda seçkilər yüksək səviyyədə keçirilib. Demokratik seçki prosedurları baxımından çox gözəl gün idi. Mənə məlum deyil ayın 9-u seçkilərdə kim qalib gəlib, ancaq onu deyə bilərəm ki, Azərbaycan xalqı qalibdir".




AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə beynəlxalq müşahidəçi qismində akkreditə olunmuş Monteneqro parlamentinin deputatı Predraq Sekuliç söyləyib.

O, seçkiləri 16 məntəqədə müşahidə etdiyini və burada yaradılan şəraitdən məmnunluğunu bildirib. "Mənim Azərbaycanda müşahidəçilik təcrübəm var. Mən burada Prezident və parlament seçkilərində müşahidəçi qismində iştirak etmişəm. Azərbaycanda insanlar fəaldır. Ümumilikdə hər şey yaxşı təşkil olunub", - deyə P.Sekuliç qeyd edib.

# BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR AZƏRBAYCANIN SEÇKİ TƏCRÜBƏSİNİ YÜKSƏK DƏYƏRLƏNDİRDİLƏR

## *İƏT nümayəndəsi:* "Seçkilərin uğurla keçməsinə Azərbaycandakı demokratik mühit əhəmiyyətli dərəcədə təsir edib"



"Seçkiləri müşahidə etmək üçün 8 məntəqədə olduq. Məntəqələrdə heç bir qanun pozuntusu müşahidə etmədik. Havanın soyuq olmasına baxmayaraq, seçicilər səsvermədə çox fəal şəkildə iştirak edirdilər. Seçkilər demokratik, şəffaf təşkil olunmuşdu".

AZƏRTAC xəbər verir ki, bu fikirləri İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Parlament İttifaqının müşahidə missiyasının üzvü Əli Əsgər Mohammadi fevralın 10-da keçirilən mətbuat konfransında deyib.

Müşahidəçi bildirib ki, seçkilərin uğurla başa çatmasına Azərbaycandakı demokratik mühit əhəmiyyətli dərəcədə təsir edib. O, seçkilərin uğurla keçməsinə görə Azərbaycan xalqını təbrik edib.

## *Meksikalı deputat:* "Müşahidə apardığım məntəqələrdə heç bir qayda pozuntusuna rast gəlmədim"



Azərbaycan Milli Məclisinə seçkiləri müşahidə edən Meksika parlamentinin deputatı Aqustin Qarsia Rubio bildirib ki, seçkilər tam demokratik və şəffaf keçirildi. Seçki prosesi konfidensiallıq və təhlükəsizlik şəraitində aparıldı.

AZƏRTAC xəbər verir ki, meksikalı müşahidəçi səsvermə prosesini yaxından izlədiyini və heç bir qayda pozuntusu qeydə almadığını vurğulayıb. O əlavə edib ki, səsvermə zamanı seçicilərə heç bir təsir göstərilmirdi.

## *Ukrayna müşahidə missiyası:* "Azərbaycanda seçkilər yüksək səviyyədə təşkil olunub"



"Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil olunub".

AZƏRTAC xəbər verir ki, bu fikri Ukrayna parlamentinin müşahidə missiyasının üzvü Valeri Kolyux Bakıda keçirilən mətbuat konfransında deyib. Müşahidəçi seçkilərin Azərbaycanın Seçki Məcəlləsinə uyğun keçirildiyini vurğulayıb.

Ukrayna parlamentinin nümayəndəsi Vladimir Kreydenko da seçkilərin təşkilatçılığından razılığını bildirib. O, xüsusilə yerli müşahidəçilərin fəallığını qeyd edib.

## *Qazaxıstan parlamentinin üzvü:* "Şəffaf seçkilər Azərbaycanın növbəti uğurudur"



Qazaxıstan parlamentinin müşahidə missiyası fevralın 9-da keçirilən Milli Məclisə seçkilərdə apardığı müşahidələrlə bağlı mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, Qazaxıstan parlamentinin müşahidə missiyasının nümayəndəsi Şahmərdan Nurumov məntəqələrdə yaradılan şəraitdən məmnun qaldıqlarını, müşahidələri zamanı hər hansı qayda pozuntusu qeydə almadıqlarını vurğulayıb.

Ondan çox məntəqədə müşahidə apardıqlarını deyən qazaxıstanlı müşahidəçi bildirib: "Azərbaycanda parlament seçkiləri çox ədalətli, qanun çərçivəsində keçirildi. Seçkilərin şəffaf şəkildə keçirilməsi Azərbaycanın növbəti uğurudur. Biz seçki məntəqələrində seçici fəallığının şahidi olduq. Bu, onu göstərir ki, xalqın dövlətçiliyə inamı böyükdür".

Şahmərdan Nurumov həmçinin Milli Məclisə seçkilərin ədalətli, uğurlu və beynəlxalq standartlara uyğun keçməsindən məmnun qaldıqlarını bildirib.

## *Slovakiya parlamentinin üzvü:* "Seçkilərdə hər şey demokratik qaydada təşkil olunub"

"Müşahidə apardığım bütün seçki məntəqələrində insanlarla ünsiyyətdə oldum, heç bir qanun pozuntusu ilə qarşılaşmadım".



AZƏRTAC xəbər verir ki, bunu Slovakiya parlamentinin müşahidə missiyasının üzvü, Slovakiya-Azərbaycan Parlamentlərarası dostluq qrupunun rəhbəri Peter Marçek bildirib.

Seçkilərdə hər şeyin demokratik qaydada təşkil olunduğunu qeyd edən P.Marçek deyib: "Məntəqələrdə vətəndaşlarla ünsiyyətdə olan zaman gördüm ki, onların hamısı parlament seçkilərində iştirak etməkdə maraqlıdırlar".

Azərbaycanda 10-cu dəfə olduğunu deyən P.Marçek bildirib ki, ötən illər ərzində Bakı çox dəyişib, şəhər inkişaf edib. "İş adamlarımıza demək istəyirəm ki, Azərbaycanda investisiya qoymaq üçün münbit şərait var", - deyə o əlavə edib.

## *Almazbek BAATIRBEKOV:* "Əhalinin yüksək seçki fəallığı məni çox fərəhləndirdi"



"Mən seçki məntəqələrində bütün müşahidəçilər üçün yaratdığı şəraitə görə Azərbaycan tərəfinə minnətdarlığımı bildirmək istəyirəm. Qırğızıstan Parlamentinin nümayəndəsi kimi mən beynəlxalq müşahidəçilər qrupunun tərkibindəyəm. Biz geniş monitorinq apardıq, seçki komissiyalarının hazırlıq səviyyəsi ilə tanış olduq. Bizim missiyamız Bakı, Qobustan və Şamaxıdakı məntəqələri ziyarət etdi. Mən hazırlıq prosesinə və seçki məntəqələrinin fəaliyyətinə məsul olan Mərkəzi Seçki Komissiyasının yüksək peşəkarlığını qeyd etməliyəm. Bizə həmçinin müşahidəçilərlə söhbət etmək, onların rəylərini öyrənmək fürsəti yaradıldı. Əhalinin, xüsusən də gənc nəslin yüksək seçki fəallığı məni çox fərəhləndirdi".

AZƏRTAC xəbər verir ki, bu barədə Milli Məclisə keçirilən seçkilərin yekunlarına həsr olunan mətbuat konfransında beynəlxalq müşahidəçi, Qırğızıstan parlamentinin deputatı Almazbek Baatırbekov bəyan edib.

A.Baatırbekov səsvermənin Seçki Məcəlləsinin normalarına müvafiq surətdə yüksək səviyyədə keçirildiyini, heç bir qayda pozuntusu və problemin aşkarlanmadığını diqqətə çatdırıb.

## *İtaliyalı müşahidəçilər:* "Seçki məntəqələrində qaydalara ciddi riayət olunurdu"



İtaliya parlamentinin nümayəndələri Azərbaycan Milli Məclisinə seçkilərdə apardıqları müşahidələrin nəticəsi ilə bağlı mətbuat konfransı keçiriblər.

AZƏRTAC xəbər verir ki, İtaliya parlamenti Deputatlar Palatasının, Sosial məsələlər üzrə komitənin sədr müavini, İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Rosanna Boldi Azərbaycandakı seçki prosesini izləməyin çox maraqlı olduğunu bildirib. O deyib: "Ötən gün mən və həmkarım Bakıda və Bakıdan kənarda seçki məntəqələrində olduq. Sumqayıtda 2 seçki məntəqəsində prosesi izlədik. Əsasən diqqətimizi seçki qaydalarına riayət edilməsinə yönəltmişdik. Xüsusilə səsverməyə gələnlərin sənədlərinin yoxlanılması məsələsində ciddi nəzarət hiss etdik. Məntəqələrdə ultrabənövşəyi cihazlar və şəffaf mürəkkəblər var idi, müşahidə kameraları işləyirdi. Müşahidəçilər arasında həm siyasi partiyalara mənsub insanlar, həm də müstəqil şəxslər var idi. Onların əksəriyyəti qadınlar və gənclər idi".

İtaliyalı deputat, Avropa Şurasında İtaliya nümayəndə heyətinin üzvü Mariya Rizotti də seçki prosesinin tam şəffaflıqla keçdiyini bildirib. O vurğulayıb ki, səsvermə qaydalarına ciddi surətdə riayət olunurdu.

## *Türkiyə Böyük Millət Məclisinin üzvləri:* "Bəzi ölkələr Azərbaycandan nümunə götürməlidirlər"




Fevralın 10-da Türkiyə Böyük Millət Məclisinin (TBMM) müşahidə missiyası Bakıda mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, müşahidə missiyasının üzvü, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Azərbaycan xalqını seçkilərin baş tutmasına görə təbrik edib. O, yeni çağırış parlamentin Azərbaycan üçün uğurlu olacağına inandığını deyib. Əlavə edib ki, Qafqazın ulduzu hesab olunan Azərbaycan bundan sonra da böyük uğurlara imza atacaq.

TBMM-in üzvü Orxan Erdem məntəqələrdə seçicilərin heç bir təsirə məruz qalmadan azad şəkildə seçimlərini etdiklərini deyib.

Parlamentin digər üzvü Yunus Kılıç bildirib ki, namizədlərin sayının çox olması, 20-yə yaxın partiyanın iştirakı seçkinin obyektiv və rəqabətli şəraitdə keçdiyini deməyə əsas verir. Seçki məntəqələrində veb-kameraların olması, müşahidəçilərin prosesi istənilən yerdən izləyə bilməsi çox gözəl haldır. Əslində, Azərbaycanın seçkiyə çox sayda beynəlxalq müşahidəçi dəvət etməsi onun açıq ölkə olduğunu, hər şeyin şəffaf olduğunu göstərir.

Türkiyə parlamentinin daha bir üzvü İbrahim Aydemir Azərbaycanın Türkiyə üçün çox dəyərli ölkə olduğunu vurğulayıb: "Burada proseslərin normal keçməsi bizi sevindirir. Biz seçkilərdə ancaq Azərbaycanın iftixar duya biləcəyi bir şərait gördük. Bəzi ölkələr Azərbaycandan nümunə götürməlidir".

Deputat Uğur Bayraktutan da məntəqələrdə kameraların olmasını, seçicilərin sərbəst səs verə bilməsini müsbət hal kimi dəyərləndirib.

## *Latviyalı müşahidəçi:* "Azərbaycanda parlament seçkiləri yüksək demokratik standartlara uyğun keçirildi"



"Azərbaycanda parlament seçkiləri yüksək demokratik standartlara uyğun keçirildi".

AZƏRTAC xəbər verir ki, bu fikri parlament seçkilərini izləyən Latviyadan olan müşahidə missiyasının üzvü Armands Krauze bildirib. O deyib: "Təqdirəlayiq haldır ki, seçki məntəqələrində çoxlu sayda yerli müşahidəçi var idi. Bu o deməkdir ki, siyasi proseslər cəmiyyətin diqqət mərkəzindədir. Bu, vacib məqamdır. Hətta deyərdim ki, cəmiyyətin belə fəallığı Avropa ölkələrində də yoxdur".

Müşahidəçi təşkilatçılıq baxımından istər paytaxtda, istərsə də bölgələrdə seçki prosesinin qənaətbəxş təşkil olunduğunu vurğulayıb.

## *Maldiv Seçki Komissiyasının üzvü:* "Azərbaycanda seçki prosesinin gedişindən razı qaldıq"



Maldiv Seçki Komissiyası Azərbaycanda keçirilən parlament seçkilərində apardığı müşahidənin nəticələrini açıqlayıb.

AZƏRTAC xəbər verir ki, Seçki Komissiyasının üzvü Fuvod Tovfok seçicilərin öz səslərini sərbəst şəkildə istədikləri namizədə verdiklərini bildirib. O deyib ki, Maldiv missiyası Bakıda 9 fərqli ünvanda və ümumilikdə 11 seçki məntəqəsində müşahidələr aparıb: "Biz səslərin sayılması prosesində də iştirak etdik. Ümumilikdə seçki prosesi çox axıcı keçdi. Hava şəraitinə baxmayaraq, seçkilərdə insanların iştirak səviyyəsi kifayət qədər yaxşı idi. Ümumilikdə seçki prosesinin gedişindən razı qaldıq".

Fuvod Tovfok qeyd edib ki, seçki məntəqələrində səsvermənin gedişini həm yerli, həm də xarici müşahidəçilər izləyirdirlər: "Kənardan heç bir şəxsin seçicilərlə təmas qurmağa çalışmasının şahidi olmadıq. İstər yerli müşahidəçilər, istərsə də komissiya üzvləri seçki prosesinin axıcı olması üçün çalışırdılar. Bizim olduğumuz hər bir seçki məntəqəsində ən azı 1 tərcüməçi var idi. Həmin insanlar bizim qarşı tərəflə ünsiyyət qurmağımıza kömək göstərirdilər. Vətəndaşlar beynəlxalq müşahidəçilərin burada iştirakını yüksək qiymətləndirirdilər və bizi gülərüzlə qarşılayırdılar".

Maldivli təmsilçi vurğulayıb ki, Azərbaycan MSK seçkilərlə bağlı yüksək təşkilatçılığı və yaxşı hazırlığı ilə seçilir.

# İran İslam İnqilabının 41-ci ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib

Fevralın 10-da İranın Azərbaycandakı səfirliyi ölkənin milli bayramı - İslam İnqilabının qələbəsinin 41-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və İranın Dövlət himnləri səsləndirilib.

Səfir Cavad Cahangirzadə İranın inqilabdan ötən 41 ildə keçdiyi inkişaf yolundan danışıb, bu müddətdə müxtəlif sahələrdə uğurlar qazanıldığını diqqətə çatdırıb.

İran-Azərbaycan münasibətlərindən danışan diplomat deyib ki, iki ölkə arasında dostluq və qardaşlığa, ortaq dini, mədəni və tarixi bağlara əsaslanan əlaqələr gündən-günə inkişaf edir, əbədidir və hazırda ən yüksək səviyyədədir. Dövlət başçılarının səmimi münasibətləri iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün möhkəm dayaq olub. Son illər qarşılıqlı turist mübadiləsinin artması, həmçinin rəsmi şəxslərin çoxsaylı qarşılıqlı səfərləri və böyük həcmdə ticarət əlaqələri dostluğun və yüksək münasibətin nəticəsidir. İki dövlət arasında imzalanmış çoxsaylı müqavilələr, müxtəlif sahələrdə icra olunan layihələr, o cümlədən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsi bu əlaqələrin inkişafının göstəricisidir.

Baş Nazirin müavini Şahin Mustafayev əlamətdar gün münasibətilə İran xalqını Prezident İlham Əliyev və Azərbaycan hökuməti adından səmimi-qəlbdən təbrik edib. Qeyd edib ki, ötən dövrdə İran uğurlu və sürətli inkişaf yolu keçib. İranın əldə etdiyi nailiyyətlər yaxın dost və qonşu ölkə olan Azərbaycanı həmişə sevindirir.





Ş.Mustafayev bildirib ki, qarşılıqlı hörmətə və dostluğa, islam irsinə əsaslanan tarixi və mədəni əlaqələrimiz həm ikitərəfli formatda, həm regional müstəvidə, həm də beynəlxalq təşkilatlar çərçivəsində yüksələn xətlə inkişaf edir. Bütün bunu şərtləndirən əsas amil kimi iki ölkə prezidentlərinin siyasi iradəsi xüsusilə vurğulanmalıdır. Dövlətlərimizin başçılarının son illərdə 13 dəfə görüşməsi əlaqələrimizin inkişafına ən yüksək səviyyədə verilən böyük önəmin göstəricisidir.

Baş Nazirin müavini qeyd edib ki, İran İslam Respublikası Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalını qınayan ilk ölkələrdəndir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində İranın nümayiş etdirdiyi ədalətli mövqe ölkələrimiz və xalqlarımız arasındakı dostluq münasibətlərinin ruhuna tam uyğundur.

İkitərəfli əməkdaşlığın möhkəm müqavilə-hüquq bazasının yaradıldığını vurğulayan Ş.Mustafayev bildirib ki, indiyədək 150-dən çox sənəd, o cümlədən iqtisadi sahədə bir sıra mühüm sənədlər imzalanıb. 2018-ci ildə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın və Xəzəryanı dövlətlər arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Sazişin imzalanması ölkələrimiz arasında çoxtərəfli formatda da əməkdaşlığın genişləndiyini göstərir. Əlaqələrin inkişafında Hökumətlərarası Komissiyanın və parlamentlərarası işçi qruplarının da mühüm rolu var. Cari ildə İranda keçirilməsi nəzərdə tutulan Hökumətlərarası Komissiyanın növbəti iclası zamanı da səmərəli müzakirələr aparılacaq, yeni razılıqlar əldə ediləcək.

Baş Nazirin müavini vurğulayıb ki, ölkələrimiz arasında əlaqələrin əsas istiqamətlərindən biri də nəqliyyat-tranzit əməkdaşlığıdır. Bu gün böyük əhəmiyyətə malik "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinin reallaşdırılması üçün mühüm addımlar atılır. Ötən il bu dəhliz vasitəsilə 400 min tona yaxın yük daşınıb ki, bu da 2018-ci illə müqayisədə 45 faizədək çoxdur.

Ölkələrimiz arasında sənaye, kənd təsərrüfatı, energetika, səhiyyə sahələrində artan əməkdaşlığı xüsusilə qeyd edən Baş Nazirin müavini bildirib ki, İrandan Azərbaycana səfər etmiş turistlərin sayında dəfələrlə artım müşahidə olunub. "ASAN Viza" vasitəsilə viza alan əcnəbilərin sayına görə İran vətəndaşları ön sıralardadır. 2019-cu il dekabrın 1-dən isə Naxçıvan Muxtar Respublikasına səfər edən İran vətəndaşlarına münasibətdə viza rejimi aradan qaldırılıb.

Baş Nazirin müavini bildirib ki, Bakı-Tehran hava reysləri ilə yanaşı, artıq Bakı-Təbriz və Bakı-Məşhəd aviareysləri təşkil olunur. Dövlət başçılarının bəyan etdiyi siyasətə uyğun olaraq birgə səylər nəticəsində iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq bundan sonra da yüksələn xətlə inkişaf edəcək.

# Azərbaycan nümayəndə heyəti Gürcüstanın Baş Naziri ilə görüşüb



İqtisadiyyat naziri Mikayıl Cabbarovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Gürcüstanın Baş Naziri Giorgi Qaxaria ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Gürcüstanın dost Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğu, hər iki ölkənin iştirakı ilə həyata keçirilən layihələrin xalqlarımızın rifahına, bütövlükdə regionun inkişafına xidmət etdiyi, strateji tərəfdaşlığı daha da möhkəmləndirdiyi vurğulanıb. Görüşdə Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi qlobal əhəmiyyətli enerji və nəqliyyat layihələrində ölkələrimizin fəal əməkdaşlığı qeyd edilib, tərəfdaşlıq əlaqələrinin genişləndiyi diqqətə çatdırılıb.

Tərəflər Azərbaycan-Gürcüstan iqtisadi əlaqələrinin inkişafı istiqamətlərinə, qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparıblar.

# Azərbaycanla Gürcüstanın əlaqələrinin inkişaf perspektivləri müzakirə edilib



Fevralın 10-da Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri Natia Turnava ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə nazir Mikayıl Cabbarov ölkəmizin Gürcüstanla ikitərəfli iqtisadi əlaqələrin daha da genişləndirilməsinə önəm verdiyini qeyd edib, Azərbaycanla Gürcüstanın dövlət və hökumət başçılarının Dünya İqtisadi Forumu çərçivəsində görüşlərini xatırladıb. Ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirən N.Turnava Azərbaycanın Gürcüstanın əsas ticarət tərəfdaşlarından olduğunu, 130 birgə sərmayəli müəssisənin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Bildirib ki, Gürcüstan birgə müəssisələrin sayının və ticarət dövriyyəsinin həcminin artırılmasında maraqlıdır.

Görüşdə iki ölkə arasında əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

# *Mikayıl CABBAROV:* "Gürcüstan Azərbaycan üçün vacib tərəfdaş ölkələrdən biridir"



Gürcüstan Azərbaycan üçün vacib tərəfdaş ölkələrdən biridir. Bu ölkədə Azərbaycan şirkətlərinin fəallığı müşahidə olunur.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan nümayəndə heyətinin fevralın 10-da Tbilisidə Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) üzvləri ilə görüşündə İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

Nazir qeyd edib ki, hər iki ölkənin iştirakçısı olduğu Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələri regionun iqtisadi əhəmiyyətini dəyişən layihələrdir.

"Azərbaycan həyata keçirilən uğurlu siyasət nəticəsində iqtisadi potensialına görə regionda aparıcı ölkədir. Azərbaycan şirkətləri ölkə iqtisadiyyatı ilə yanaşı, bir sıra ölkələrə də investisiyalar yatırırlar. Gürcüstan da belə ölkələrdəndir. Azərbaycan şirkətləri Gürcüstan iqtisadiyyatının müxtəlif sahələrinə xeyli sərmayə yatırıblar. Bu da bizim iqtisadi əlaqələrimizin inkişafında önəmli rol oynayır", - deyə nazir bildirib. Görüşdə azərbaycanlı iş adamlarının qonşu ölkədə fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb.

# Vyanada Nüvə Təhlükəsizliyi üzrə Beynəlxalq Konfrans keçirilir

Fevralın 10-da Vyanada Nüvə Təhlükəsizliyi üzrə Beynəlxalq Konfrans işə başlayıb. Konfransın işində Atom Enerjisi üzrə Beynəlxalq Agentliyə (AEBA) üzv olan 139 dövlətin nümayəndələri, 40-dan çox nazir, hökumət və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, ekspertlər və jurnalistlər olmaqla, iki mindən artıq nümayəndə iştirak edir.

AZƏRTAC xəbər verir ki, "Uğurların davamlılığı və gücləndirilməsi" mövzusunda keçirilən Nüvə Təhlükəsizliyi üzrə 3-cü Beynəlxalq Konfransda milli nüvə təhlükəsizliyi rejiminin gücləndirilməsi və bu sahədə beynəlxalq



əməkdaşlığın dərinləşdirilməsi, aktual nüvə təhlükəsizliyi vəziyyətinin dəyərləndirilməsi, müasir trendlərin və yanaşmaların müzakirəsi, nüvə təhlükəsizliyi sahəsində AEBA-nın təcrübəsinin bölüşdürülməsi, həmçinin digər mövzular ətrafında fikir mübadiləsi aparılacaq. Konfrans çərçivəsində yüksəksəviyyəli iştirakçılar çıxış edəcək, Nazirlər Bəyannaməsi qəbul olunacaq.

Konfransda ölkəmizi Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir.

Konfrans öz işini fevralın 14-dək davam etdirəcək.

# *Elmar MƏMMƏDYAROV:* "Azərbaycan nüvə təhlükəsizliyinin qorunmasına və daha da gücləndirilməsinə böyük əhəmiyyət verir"

Azərbaycan nüvə təhlükəsizliyi sahəsində davam edən tendensiyaları yaxından izləyir. Biz mövcud nüvə təhlükəsizliyi təşəbbüslərini dəstəkləyirik və bu sahədə beynəlxalq çoxtərəfli mexanizmlərə xüsusi diqqət yetiririk. Nüvə Silahlarının Yayılmaması Müqaviləsi (NSYM) nüvə silahsızlaşdırılması, yayılmama və nüvə enerjisindən dinc məqsədlərlə istifadə üçün qlobal rejimin dayağıdır. Nüvə təhlükəsizliyi, xüsusən nüvə silahlarının yayılması ilə bağlı beynəlxalq ictimaiyyətin narahatlığını bölüşən Azərbaycan müstəqilliyini əldə etdikdən sonra NSYM-ni ratifikasiya etdi və 1995-ci ildə müqavilənin müddətsiz uzadılmasını dəstəklədi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov "Nüvə Təhlükəsizliyinə dair Beynəlxalq Konfrans: səylərin davam etdirilməsi və gücləndirilməsi" konfransındakı çıxışında bildirib.

Nazir deyib: "Biz mövcud və meydana çıxan nüvə təhlükəsizliyi təhdidlərindən narahatıq və onları həll etməyə sadiqik. Mövcud təhlükəsizlik mühitində nüvə və ya digər radioaktiv materialdan zərərli məqsədlər üçün istifadə olunması istisna edilmir. Bu təhdidin qlobal mahiyyəti bütün dövlətlərdən razılaşdırılmış hərəkət tələb edir. NSYM çərçivəsində təminatlar haqqında sazişlərə əməl olunmaması yayılmamaq rejiminin davamlılığına və üzv dövlətlərin təhlükəsizliyinə təhdid təşkil edir. Bu baxımdan AEBA təminatları beynəlxalq sülhə və təhlükəsizliyə misilsiz töhfədir.

BMT Təhlükəsizlik Şurasının 2231 saylı qətnamələrinə uyğun olaraq, agentliyin yoxlama və monitorinq fəaliyyətini alqışlayırıq. Biz çoxtərəfli danışıqların və diplomatiyanın uğurunu əks etdirən Birgə Hərtərəfli Fəaliyyət Planının (BHFP) əhəmiyyətini vurğulayırıq. Burada etiraf olunur ki, BHFP-nin müvəffəqiyyətlə həyata keçirilməsi, bütün tərəflərin BHFP-də nəzərdə tutulan üstünlüklərdən tam istifadə etmələri üçün öhdəliklərin tam yerinə yetirilməsini tələb edir.

Beynəlxalq əməkdaşlıq həmişə nüvə təhlükəsizliyi sahəsində səylərimizin mərkəzində olub. İnanırıq ki, bu sahədə əldə olunan irəliləyiş sülhü və təhlükəsizliyi möhkəmləndirir və etimadı artırır. Bu sahədə fəaliyyətlərimiz həmişə məqsədyönlü olub və qarşılıqlı hörmət və əməkdaşlıq ruhunda aparılıb.



Biz nüvə təhlükəsizliyi qaydaları və standartlarının hazırlanmasında AEBA-nın əsas rolunu tanıyırıq və qiymətləndiririk. Azərbaycan agentliklə nüvə təhlükəsizliyinin müxtəlif aspektləri üzrə uğurlu əməkdaşlığı inkişaf etdirib. Biz mövcud səmərəli əməkdaşlığı dərinləşdirməyə hazırıq. Azərbaycan AEBA-nın İnsidentlər və Qeyri-qanuni Dövriyyə üzrə Məlumat Bazasına töhfə verməklə qanunsuz dövriyyə ilə bağlı beynəlxalq məlumat mübadiləsində iştirak edir.

AEBA-nın Texniki Əməkdaşlıq Proqramı çərçivəsində 2015-ci ildə Azərbaycan Respublikası və AEBA 2015-2020-ci illər üçün Ölkə Proqramının Çərçivə sənədini imzaladılar və o, normativ hüquqi infrastrukturun təkmilləşdirilməsi, radiasiya təhlükəsizliyi potensialı, nüvə materiallarının təhlükəsizliyi, radioaktiv tullantıların idarə olunması, həmçinin sərhəd və gömrük buraxılış məntəqələrinin radiasiya monitorinqi və nəzarəti sahələrində milli layihələrin əsasını təşkil edir.

Azərbaycan həmçinin BMT-nin nüvə təhlükəsizliyinin gücləndirilməsi səylərini alqışlayır. Bu baxımdan Təhlükəsizlik Şurasının 1540 saylı qətnaməsinin və sonrakı qətnamələrinin tam şəkildə yerinə yetirilməsinin təmin edilməsi nüvə, kimyəvi və bioloji silahların, eləcə də onların çatdırılma vasitələrinin yayılmasının qarşısının alınmasında mühüm rol oynayır.

Azərbaycan Nüvə Terrorizmi ilə Mübarizə üzrə Qlobal Təşəbbüsün (NTMQT) tərəfdaş ölkəsi olandan bəri ölkənin nümayəndələri və milli ekspertləri NTMQT tədbirlərində və tematik təlimlərdə fəal iştirak edirlər. Bu forumlar Azərbaycanın nüvə təhlükəsizliyi sahəsində beynəlxalq öhdəliklərini yerinə yetirməsi çərçivəsində həyata keçirdiyi tədbirləri haqqında məlumat mübadiləsini aparmağa bir fürsət yaratdı. Bundan əlavə, tərəfdaş ölkələrimizlə qanunsuz dövriyyəyə qarşı mübarizə, yayılmama və normativ hüquqi bazanın gücləndirilməsi sahəsində ikitərəfli əməkdaşlığı davam etdiririk.

Nüvə təhlükəsizliyi nüvə texnologiyalarının idarə edilməsində və nüvə və ya digər radioaktiv materialların istifadəsi və ya daşınması mümkün olduğu hallarında fundamental əhəmiyyət kəsb edir. Bununla əlaqədar Azərbaycanda bu cür materialların qorunması və nəzarətini gücləndirmək və nüvə təhlükəsizliyi hadisələrinə effektiv reaksiya vermək üçün lazımi işlər görülür. Müvafiq tənzimləmə orqanlarının yaradılması, qanunvericilik və qaydaların təkmilləşdirilməsi və inkişafı, nəzarətə pilləli yanaşmanın tətbiqi, habelə müxtəlif beynəlxalq layihələrdə iştirak və beynəlxalq əməkdaşlığın inkişafı mövcud infrastrukturun inkişafına əvəzsiz töhfə verir.

Radiasiya təhlükəsizliyinə nəzarət haqqında qanunvericilik üzərində işimizi davam etdiririk. Artıq Azərbaycan nüvə və radiasiya tullantılarının ölkəyə gətirilməsini qəti qadağan edən normativ akt və qaydaları qəbul edib. AEBA-nın köməyi ilə nüvə və radioaktiv materialların qeydiyyatı və nəzarəti ilə bağlı Azərbaycanın qanunları və digər qanunvericilik aktları beynəlxalq standartlara uyğunlaşdırılır.

Azərbaycan Nüvə Terrorizmi Aktlarına Qarşı Mübarizə üzrə Beynəlxalq Konvensiyaya və Nüvə Materialının Fiziki Mühafizəsi Konvensiyasına (NMFMK) qoşulmuş və bu Konvensiyaya Düzəlişi təsdiq edib.

Azərbaycan nüvə təhlükəsizliyinin qorunmasına və daha da gücləndirilməsinə böyük əhəmiyyət verir. Xüsusilə bölgədəki radikal ekstremizm və terrorizm təhlükəsi qarşısında və coğrafi vəziyyətimizə görə ərazimizin qanunsuz nüvə ticarəti üçün tranzit marşrutu kimi istifadə edilməsinin qarşısının alınmasına böyük əhəmiyyət veririk.

Beynəlxalq tərəfdaşlarımızla sıx əməkdaşlıq şəraitində beynəlxalq standartlara uyğun möhkəm qanunvericilik bazası ilə hərtərəfli milli ixrac nəzarəti sistemini işləyib hazırlamışıq. Ancaq ərazimizin iyirmi faizinin Ermənistan tərəfindən işğalının davam etməsi səbəbindən sərhədlərimizin əhəmiyyətli bir hissəsi boyunca lazımi nəzarəti təmin edə bilmirik. Bu vəziyyət qanunsuz fəaliyyət, o cümlədən nüvə qaçaqmalçılığı və nüvə terrorizmi üçün əlverişli şərait yaradır.

Azərbaycan beynəlxalq təşkilatlar və tərəfdaşlarımızla regionda və dünyada nüvə təhlükəsizliyinin möhkəmləndirilməsi və nüvə və radioaktiv materialların qanunsuz dövriyyəsi nəticəsində yaranan təhdidlərin azaldılması istiqamətində əməkdaşlığı davam etdirmək əzmindədir və bu məsələdə AEBA-nın əməkdaşlığına və dəstəyinə arxalanır. Dünyanın nüvə təhlükəsizliyinin təşviqində bu konfransın əhəmiyyətini vurğulayaraq bildirirəm ki, Azərbaycan "Nüvə Təhlükəsizliyi: səylərin davam etdirilməsi və gücləndirilməsi" üzrə Beynəlxalq Konfransın Nazirlər Bəyannaməsini dəstəkləyir".

# Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in Baş katibi ilə görüşüb

Xarici İşlər naziri Elmar Məmmədyarov Vyanada ATƏT-in Baş katibi Tomas Qreminqer ilə görüşüb. Tərəflər ATƏT və Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə ediblər.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Baş katib Qreminqer ATƏT-in Azərbaycanı təhlükəsizliyin hər üç ölçüsü - hərbi-siyasi, iqtisadi və ətraf mühit və insan ölçüsü üzrə öhdəliklərinin yerinə yetirilməsində dəstəkləməyə sadiq olduğunu qeyd edib. Bu xüsusda Baş katib ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Azərbaycan tərəfinin rəsmi dəvətini qəbul edərək 9 fevral tarixli növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün Azərbaycana Seçki Müşahidə Missiyası göndərdiyini xatırladıb.

Nazir Elmar Məmmədyarov vurğulayıb ki, bu seçkilər Azərbaycanda həyata keçirilən islahatlar prosesi kontekstində nəzərdən keçirilməlidir.

Nazir Elmar Məmmədyarov Baş katib Qreminqerə bu il yanvarın 28-dən 30-dək ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan Xarici İşlər naziri Zöhrab Mnatsakanyan ilə Cenevrədə keçirilmiş görüşü barədə məlumat verib. Nazir münaqişənin Helsinki Yekun Aktının prinsipləri əsasında tezliklə həllinin substantiv aspektləri üzrə ətraflı müzakirələrin əhəmiyyətini vurğulayıb.

Baş katib qreminqer Minsk qrupunun həmsədrlərinin səylərinə tam dəstəyini ifadə edib və insanlar arasında intensiv təmaslar vasitəsilə əhalinin sülhə hazırlanması üçün konkret addımları və danışıqları alqışlayıb.

Nazir Məmmədyarov və Baş katib Qreminqer, həmçinin ATƏT-in "Xəzər dənizi bölgəsində yaşıl limanların və bağlılığın təşviq edilməsi" layihəsinin həyata keçirilməsinin hazırkı mərhələsini müzakirə ediblər. Layihə Xəzər dənizi boyunca və daha geniş bölgədə bağlılığı təşviq etmək üçün yenilənə bilən enerji, rəqəmsallaşma, ticarət və nəqliyyat vasitələrindən daha yaxşı istifadə etmələri üçün Azərbaycan, Qazaxıstan və Türkmənistanı dəstəkləmək məqsədini daşıyır.

Nazir Elmar Məmmədyarov Baş katib Qreminqeri yaxın gələcəkdə Azərbaycana səfər etməyə dəvət edib. Bildirib ki, Baş katibin səfəri münasibətilə Bakıda yaşıl limanların və bağlılığın təşviqi ilə bağlı konfrans təşkil olunacaq.

# Əhalinin sosial müdafiəsinin gücləndirilməsinin davamlı olması bir daha təsdiqləndi

Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, dövlətin iqtisadi siyasətində Azərbaycan vətəndaşının sosial rifahının təminatı prioritet istiqamət olaraq qalır. Aparılan sosial-iqtisadi islahatlar da buna xidmət edir. Keçən il sosial sahədə qəbul edilən qərarlardan 4 milyondan çox ölkə vətəndaşı faydalandı. İmzalanan fərman və sərəncamlar sayəsində minimum pensiya və əməkhaqqının, müavinət və təqaüdlərin artırılması ölkə vətəndaşlarının sosial müdafiəsini xeyli gücləndirdi.

Prezident İlham Əliyev tərəfindən imzalanan 6 fevral 2020-ci il tarixli "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncam da bu istiqamətdə atılan növbəti addımdır. Sərəncamda qeyd edilir ki, orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun bütün növ əmək pensiyalarının sığorta hissəsinin, istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsi həyata keçirilsin. Başqa sözlə desək, cari il yanvarın birindən ötən il üzrə Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək 16,6 faiz artırılsın. Qeyd edək ki, son sərəncam pensiyaçıların 93 faizini və ya 1 milyon 120 minə yaxın insanı əhatə edir.

Bu artımın maliyyələşməsi və tələb olunan vəsaitə gəldikdə, dövlət həmin məqsədlə təxminən ildə 560 milyon manat əlavə vəsait xərcləyəcək. Bu hesaba orta aylıq pensiyanın məbləği 262 manatdan 300 manata yüksələcək.

Bununla yanaşı, dövlət pensiya almayan vətəndaşların gələcəkdə pensiya təminatının yüksək olmasının da qeydinə qalır. Belə ki, Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində hesabların sığorta hissəsində qeydə alınan pensiya kapitalı məbləğləri də yanvarın birindən indeksləşdirilməklə 2,6 faiz artırılır.

Məlum olduğu kimi, ötən il Prezidentin sərəncamları ilə qəbul edilən iki mühüm sosial paket əhalinin geniş kütləsinin sosial müdafiəsini xeyli gücləndirmişdir. Həmin sərəncamlar təkcə pensiyaçıların deyil, bütün kateqoriyalardan olan vətəndaşların rifahını yaxşılaşdırmışdır.

Xatırladaq ki, həmin sənədlərə əsasən, minimum əməkhaqqı 2 dəfəyə yaxın artırılaraq 130 manatdan 250 manata çatdırılmışdır. Minimum, eləcə də dövlət sektorunda əməkhaqlarının artımı 1 milyon 350 min nəfəri (o cümlədən dövlət sektoru üzrə 1 milyon, özəl sektor üzrə 350 min nəfəri) əhatə etmişdir.

Ötən il əhalinin pensiya təminatı ilə bağlı da mühüm sənədlər imzalanmışdır. Minimum pensiya 72,4 faiz artaraq 116 manatdan 200 manata çatdırılmış, həmçinin əməkhaqqı artımı xüsusi şərtlərlə təyin olunan pensiyalarda (hərbçilərin, dövlət qulluqçularının və başqalarının pensiyalarında) 31 faiz artım təmin olunmuşdur. Beləliklə, ümumilikdə hər iki istiqamət üzrə pensiya artımı 750 min nəfərdən çox pensiyaçını əhatə etmişdir. Nəticədə Azərbaycan minimum pensiyanın alıcılıq qabiliyyəti indeksi üzrə MDB ölkələri arasında birinci, minimum əməkhaqqının alıcılıq qabiliyyəti indeksi üzrə ikinci yerə yüksəlmişdir.

Bununla yanaşı, sosial müavinət və təqaüdlər də orta hesabla 100 faiz artırılmışdır. Həmin artım həssas qrupdan olan vətəndaşlardan ibarət 600 min insanı, o cümlədən 300 minə qədər əlilliyi olan şəxsi əhatə etmişdir. Yeni təqaüd növləri - sağlamlıq imkanları məhdud uşaqlara və 1-ci dərəcə əlilliyi olan şəxslərə qulluq edənlər, müharibə veteranları üçün Prezidentin aylıq təqaüdü də təsis olunmuşdur. Eyni zamanda məcburi köçkünlərin müavinətləri, tələbələrin təqaüdləri artırılmış, 800 min insanın problemli kreditlə bağlı narahatlığına son qoyulmuşdur.

Amma sosial sahədə görülən işlər bununla da bitmir. Əgər 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan (207 mənzil) 3 dəfə çox olmaqla 626 mənzil təqdim edilmişsə, ötən il bu göstərici 934-ə yüksəlmişdir. Ümumiyyətlə, indiyədək şəhid ailələri və müharibə əlilləri dövlətdən 7600-ə yaxın mənzil və fərdi ev almışlar. Həmin kateqoriyadan olan insanlara göstərilən qayğı cari ildə də davam edəcək. Dövlət başçısının birbaşa tapşırığı ilə bu il şəhid ailələrinə və müharibə əlillərinə ən azı 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub.

Müharibə əlilləri və onlara bərabər tutulanlar dövlət tərəfindən minik avtomobilləri ilə də təmin olunurlar. 2018-ci ildə bu kateqoriyadan olan insanlara 265, ötən il 600, ümumilikdə isə 6750 minik avtomobili verilmişdir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Birinci Regional İnkişaf Proqramının təsdiq edildiyi vaxtdan 16 il keçir

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-2008-ci illər) təsdiq edildiyi gündən 16 il keçir. Beşillik bir müddəti əhatə edən bu proqramın uğurlu icrası ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuşdur. Həmin illər ərzində iqtisadiyyatın bütün sahələrində dinamik artım müşahidə edilmişdir. Bunu həmin illərin göstəricilərinə aid rəqəmlər də təsdiqləyir.



# 2004-2008-ci illər - böyük yüksəlişə təkan verən dövr

2004-2008-ci illərdə ölkədə 27,5 mindən çox yeni müəssisə açılmış, 547,5 min daimi yeni iş yeri yaradılmış, yoxsulluğun səviyyəsi 13,2 faizədək azalmışdır. Ümumi daxili məhsulun real həcmi 2,6, qeyri-neft sektorunda məhsul istehsalı 1,8 dəfə artmışdır. Sənaye istehsalı 2,5 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 25,2 faiz artmış, əhalinin gəlirləri 4 dəfə çoxalmışdır.

Azərbaycan artıq üç Regional İnkişaf Proqramı həyata keçirmişdir. Dördüncüsünün ilk ilinə isə cari il fevralın 3-də yekun vurulmuşdur. Bu münasibətlə keçirilən konfransda Prezident İlham Əliyev məhz ilk Regional İnkişaf Proqramını xatırladaraq demişdir: "2004-cü ildə qəbul edilmiş birinci proqram tarixi hadisə idi. O vaxt proqram mənim seçkiqabağı proqramımın tərkib hissəsi idi. O vaxt ilk dəfə prezident vəzifəsinə seçilən zaman vətəndaşlara demişdim ki, əgər mənə etimad göstərilərsə, o cümlədən regionların inkişafı ilə ciddi məşğul olacağam. Çünki bilirdim ki, Azərbaycanın regionlarında vəziyyət o qədər də yaxşı deyil. Bunun da, əlbəttə ki, təbii səbəbləri var idi - infrastruktur köhnəlmişdi, demək olar ki, sıradan çıxmışdı, bir çox müəssisələr fəaliyyətini dayandırmışdı, kənd təsərrüfatında durğunluq yaşanırdı. Ona görə hesab edirdim ki, Regional İnkişaf Proqramı bizim üçün əsas təkanverici proqram olacaq. Eyni zamanda Azərbaycan əhalisinin böyük əksəriyyəti bölgələrdə yaşayır, rayonlarda, kəndlərdə yaşayır. Onların yaşayışı yaxşılaşmalı idi".

2004-2008-ci illər həqiqətən də Azərbaycanın yüksəlişi üçün təkanverici dövr oldu. Bu illər ərzində həyata keçirilən ardıcıl tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, yeni müəssisələrin və iş yerlərinin yaradılmasına, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəlməsinə təkan verdi. Görülən genişmiqyaslı işlər eləcə də sahibkarlıq mühitinin daha da yaxşılaşmasında, iqtisadiyyata investisiya qoyuluşlarının artmasında, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsində və yoxsulluğun azalmasında mühüm rol oynadı.

Məlumdur ki, ərzaq, enerji və nəqliyyat təhlükəsizliyini təmin edə bilməyən ölkələrdə adətən ciddi problemlər yaranır, onlar sərbəst yaşamaq imkanına malik olmurlar. Azərbaycan dövləti düzgün və məqsədyönlü siyasət yürüdərək bu istiqamətdə önəmli layihələr həyata keçirmişdir. Sözügedən dövr ərzində Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, "Şahdəniz" qazını daşıyan Bakı-Tbilisi-Ərzurum xətti istifadəyə verilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişinə başlanmışdır. Bir sözlə, bu, Azərbaycanın artıq regionun güc mərkəzinə çevrildiyi bir dövr idi.

İqtisadiyyatın əsas sütunlarından olan elektroenergetika sahəsinə xüsusi diqqət yetirilmişdir. Ümumi istehsal gücü 1000 meqavatdan çox olan 9 elektrik stansiyası inşa edilmişdir. Proqram sona çatarkən daha iki stansiyanın tikintisi tamamlanmaqda idi və daha ikisinin inşası davam edirdi.

Proqramın icrasına başlanmazdan əvvəl ölkədə qazlaşdırmanın səviyyəsi 60-62 faiz idisə, beş il sonra bu rəqəm 85 faizə çatmışdı. Bu müddət ərzində 8 rayona qaz verilmişdir. 13 illik fasilədən sonra Naxçıvan Muxtar Respublikası qazla təmin olunmuşdur.

Kənd təsərrüfatının inkişafı da diqqət mərkəzində idi. Fermerlərə güzəştli şərtlərlə gübrə verilməsinə məhz bu illərdə başlandı. Meliorasiya tədbirlərinə diqqət artırıldı, suvarılan torpaqların sahəsi genişləndirildi. Nəticədə taxıl və digər kənd təsərrüfatı məhsullarının istehsalı artdı.

Cəmi 5 il ərzində bölgələrdə 4 aeroportun tikilməsi də həyata keçirilən tədbirlərin miqyasından xəbər verir. Belə ki, Naxçıvan, Gəncə, Zaqatala və Lənkəran aeroportları məhz bu dövrdə inşa edilmişdir.

Birinci Regional İnkişaf Proqramının əhatə etdiyi illərdə tanker donanması maksimum dərəcədə təmin olunmuş, Xəzərdə yükdaşımalar artmışdır. Avtomobil yollarının tikintisi geniş vüsət almışdır.

Diqqət mərkəzində olan təkcə iqtisadiyyat deyildi. Sosial məsələlərin həlli də prioritet olmuşdur. Sosial proqramların həyata keçirilməsi, sosial infrastrukturun yaradılması istiqamətində də müsbət nəticələr əldə edilmişdir. Beş il ərzində minimum əməkhaqqı 8,3 dəfə, minimum pensiya 4 dəfə artmışdır. Sosial infrastrukturun yaradılmasına və yenilənməsinə böyük həcmdə vəsait yönəldilmişdir. 1600 məktəb tikilmişdir. Yüzlərlə tibb ocağı inşa edilmişdir. Onlardan 8-i yüksək standartlara cavab verən müalicə-diaqnostika mərkəzləri idi. Həmin dövrdə eləcə də 10-dan çox olimpiya idman kompleksi və digər qurğular istifadəyə verilmişdir.

2009-cu ilin fevral ayında birinci Regional İnkişaf Proqramına yekun vurularkən Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının artıq oturuşmuş iqtisadiyyat olduğunu və dünyanı bürümüş maliyyə böhranının ölkəmizdə çox az hiss edildiyini qeyd etmiş, sözügedən sənədin inkişafa böyük təkan verdiyini demişdir: "Bütün bunlar, əlbəttə ki, növbəti illərdə iqtisadiyyatımızın daha da şaxələndirilməsinə gətirib çıxaracaqdır. Beləliklə, ölkə öz inkişafını uğurla davam etdirəcəkdir və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları bundan sonra da ildən-ilə daha yaxşı yaşayacaqdır. Bu da 2004-cü ilin əvvəlində qarşıya qoyduğumuz ən vacib məqsədlərdən biri idi".

Zaman qarşıya qoyulmuş vəzifələrin məqsədyönlü olduğunu, müəyyənləşdirilmiş strategiyanın düzgün seçildiyini təsdiqlədi. Həyata keçirilən çoxşaxəli proqramlar, dərin islahatlar Azərbaycanı böyük inkişaf yoluna çıxardı və biz bu yolda uğurla daha irəliyə gedirik.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## 11 fevral Beynəlxalq Təhlükəsiz İnternet günüdür

# Təhlükəli virtual aləm

İnternet çoxumuzun həyatının ayrılmaz hissəsinə çevrilib. Hətta vəziyyət o yerə çatıb ki, işdə, evdə, gəzintidə, məclislərdə belə internetsiz qalmaq mümkün deyil. Baş verən yeniliklərdən xəbərdar olmaq üçün istər-istəməz söhbət əsnasında internetə nəzər yetirməli olursan. Yaxud hansısa xoş anları tarixə köçürmək üçün şəkil çəkdirib, sosial şəbəkədə bölüşürsən... Lakin təəssüf ki, zamanımızın çoxunu keçirdiyimiz bu internetin təhlükəsizliyi barədə unuduruq və ya heç düşünmürük. Axı bu gün internetdə faydalı xəbərlərlə bərabər hər cür zərərli məlumatlar da mövcuddur və onlardan övladlarımız da istifadə edirlər…

Bəli, bu gün uşaq və yeniyetmələr internetin aktiv istifadəçiləridirlər. Rəqəmsal dünyaya daxil olmaq, ünsiyyət yaratmaq, yeni məlumat əldə etmək uşaqların həyat tərzini köklü surətdə dəyişir, potensialını artırır. İnternet uşaqlara maraqlı filmləri izləmək, musiqilərlə tanış olmaq, yeni biliklər qazanmaq, öz qabiliyyətlərini inkişaf etdirmək imkanları verir. Onların məlumatlanmasında, sosiallaşmasında, dünyagörüşlərinin formalaşmasında və informasiyanın sürətlə əldə edilməsində mühüm rol oynayır. Sürətli və sərhədsiz əlçatanlıq sayəsində həyatı əhəmiyyətli dərəcədə asanlaşdıran internet uşaqlar üçün həm əyləncə, həm də tədris vasitəsidir. Lakin şagirdlərin çoxu internetdən yalnız təhsil məqsədləri üçün istifadə etmir. Onlar təhsil saytları ilə yanaşı digər veb-səhifələrə daxil olur və bu zaman ziyanlı, aqressiv və ya sosial təhlükəli məzmunda olan informasiyalarla, müxtəlif təhlükələrlə üzləşir, kibercinayətkarların hədəfinə çevrilirlər. İnternet səhifələrdə arzuolunmaz mənəvi və əxlaqi keyfiyyətlərə zidd olan nüansları aşılayan kontentlər uşaqların yaşına uyğun olmayan şəkillərlə cinsi istismarını və spirtli içkilərin istehlakını təbliğ edir. Həmçinin psixotrop maddələrin qəbulunu, qəddarlığı, təcavüz və intiharı, ailəyə qarşı hörmətsizliyi, aldatma, yalan və jarqon ifadələrlə danışmağı təbliğ edir. Bəzən uşaqlar və yeniyetmələr internetdə tanımadıqları insanlarla əlaqə yaradır və əksər hallarda bu insanlarla real həyatda da görüşürlər. Nəticədə insanın öz gerçək kimliyini asanlıqla gizləyə bildiyi, nəzarətin çətin olduğu internet uşaqların asan hədəfə döndüyü, müdafiə və himayəsiz qaldığı məkana çevrilir.

Bəs hazırda Azərbaycanda internet təhlükəsizliyi hansı səviyyədədir? Övladlarımızı internetdəki təhlükələrdən qorumaq üçün nə etməliyik?

### "İnternet klublara təklif olunsun ki..."

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz söyləyir ki, son dövrlər internet təhlükəsizliyinin qorunması ilə bağlı Azərbaycanda müəyyən işlər görülüb. Qanunvericilik istiqamətində bir sıra addımlar atılıb, təhlükəsizliyə cavabdeh qurumların səlahiyyətləri dəqiqləşdirilib. Bu sahədə fəaliyyətin təkmilləşdirilməsi, dövlət orqanlarının informasiya resursları və sistemlərinin mümkün təhdidlərdən qorunması, kibertəhlükəsizlik üzrə ümummilli hazırlığın və maarifləndirmənin yüksəldilməsi məqsədi ilə Prezident İlham Əliyevin fərmanına əsasən, ölkədə Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi fəaliyyət göstərməkdədir. Dövlət başçısının sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" təsdiq edilib. Uşaqların zərərli informasiyadan qorunması haqqında qanun qəbul olunub: "Bu qanunda uşaqların zərərli informasiyadan qorunması sahəsində əsas prinsiplər, anlayışlar, yaş kateqoriyasına uyğun informasiya məhsulunun dövriyyəsinə dair tələblər müəyyənləşdirilib. Qanun bu il yanvarın 1-dən qüvvəyə minib. Sənəddə ilk dəfə olaraq qeyd olunub ki, valideyn provayderdən halal, yəni uşaqlar üçün təhlükə törətməyən, təmizlənmiş internet istəyə bilər. Hazırda problem ondan ibarətdir ki, qanunun bu maddəsi yetərincə gerçəkləşməyib. Provayderlərin çoxu bu cür interneti verə bimir, çünki bunun üçün ofisində filtrasiya sistemi quraşdırmalıdır. Bu da müəyyən maliyyə vəsaiti tələb edir. Yəqin ki, bu məsələ Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə həll olunmalıdır.

Bu yöndə məktəblərdə aidiyyəti qurumların maarifləndirici tədbirləri olur, müəyyən qədər ictimai nəzarət həyata keçirilir. Amma uşaq və yeniyetmələr internet klublara da gedirlər. Orda artıq valideyn nəzarətində olmurlar. Hesab edirəm ki, məktəblərin yaxınlığında yerləşən internet klublara tələblər irəli sürülə bilər. Düzdür, ora kommersiya qurumudur, tam şərt qoymaq düz olmaz. Amma təklif etmək olar ki, uşaqlar üçün filtrasiyalı internet xidmətinə qoşulmuş ayrıca kompüter qoyulsun".

### Uşaq intiharlarında internet faktoru

Psixologiya Elmi-Tədqiqat İnstitutunun rəhbəri Elnur Rüstəmov deyir ki, internet təhlükəsizliyi hazırda ən aktual mövzulardan və problemlərdən biridir. Günümüzdə bu problemdən ən çox əziyyət çəkən isə uşaqlardır. Belə ki, internetdə hansısa materiallardan istifadə etdikləri zaman uşaqların yaşlarına uyğun olmayan linklərə keçid qoyulur, oyunlar vasitəsilə müəyyən subliminal mesajlar ötürülür ki, bu da onların psixikasına böyük zədələr vurur: "Uşaq linki görəndə ora keçid edir. O nə bilsin bu nədir? Elə bilməyərək də yanlış istiqamətə yönəlir. Oyunlar var ki, bir müddət sonra aludəçilik yaradır. Məqsəd elə uşağı o oyunlara bağlamaqdır. Bəzən valideyn deyir, uşaq səbəbsiz şəkildə qorxur, davranışında problemlər, kobudluq yaranır. Söhbət əsnasında aydın olur ki, bunlar uşağın telefondan, internetdən, oyundan asılı olma səbəbindən ortaya çıxır. Bu gün internetə aludə olan uşaqlar kifayət qədərdir. Bu da onlarda nitq tənbəlliyi yaradır. Fikir verin, son illər uşaqların nitqində problemlər artıb, gec dil açırlar. Diqqət yayınıqlığı, aqressivlik olur ki, bu da davranış pozuntusuna gətirib çıxarır. Bəzən uşaq reallıqdan uzaqlaşaraq, virtual dostluqlara daha çox üz tutur. Nəticədə onda özgüvən hissi azalır. Eyni zamanda, cəmiyyətə qarşı mənfi duyğu və düşüncələr inkişaf edə bilər, ünsiyyət qurmaqda çətinlik çəkər. Yaxud fobiyalar formalaşar və zaman keçdikcə psixiatrik problemlərə yol aça biləcək təhlükələr yaranar".

Psixoloq hesab edir ki, son vaxtlar uşaq intiharlarının artmasında da internetin rolu var, sadəcə bunu konkret müəyyənləşdirmək bir qədər çətindir: "Desək ki, "uşaq intiharları birmənalı şəkildə internetlə bağlıdır" doğru olmaz. Amma burda internet faktoru rol oynayır. Müəyyən oyunlar uşaqları özünəqapanmağa, həyatın anlam daşımaması kimi düşüncələrə və intihara gətirib çıxarır. Bəzi oyunlar da var ki, uşaq orda gördüklərini imitasiya edir. Sadəcə oyunda görür ki, binadan yerə tullandı, təzədən durub yeriməyə başladı. Uşaq bunu təhlükə kimi qəbul etmir. Öləcəyini düşünmür, heç bilmir ölüm nədir. Fikirləşir, o edibsə, mən də edə bilərəm. Bəzən intihar bu yamsılama fonunda baş verir. Dolayısıyla bu proseslər uşaq intiharlarının baş verməsinə təsir göstərir".

E.Rüstəmov uşaqların internetdən təhlükəsiz istifadəsini təmin etmək üçün xüsusi proqram hazırlanmasını vacib hesab edir. Mütəxəssisin fikrincə, yaxşı olardı, internet paketlərini valideynlər özləri sifariş verə bilsinlər ki, orda müəyyən saytlara giriş yasaq olunsun. Bundan başqa, Azərbaycan mentalitetini, adət-ənənələrini özündə əks etdirən oyunların və cizgi filmlərinin yaradılmasına da ciddi ehtiyac var. Bununla problemdən müəyyən qədər qurtulmaq mümkün olar. Lakin ən əsası valideynlərin uşağı nəzarətsiz buraxmamasıdır: "Təəssüf ki, bu gün uşaqların müəyyən hissəsi nəzarətsizdir. Valideyn telefonu uşağa verir ki, sakit otursun. "Gözümün qabağındadır, deməli, hər şey yaxşıdır" düşüncəsindən çıxış edir. Xəbəri yoxdur uşaq orda nəyi izləyir. Fikirləşir ki, cizgi filminə baxır. Amma gərək özü əvvəlcə o cizgi filminə baxıb görsün ki, orda, ümumiyyətlə, nədən bəhs edilir, uşaqlara hansı mesaj ötürülür. Hazırda internetdən asılı olan valideynlərimiz çoxdur. Bu da uşaqların psixologiyasına təsir göstərir. Valideyn uşağa zaman ayırmır, canlı ünsiyyətdə olmur. Bəli, bu gün internetsiz qala bilmərik. Amma internetdən düzgün davranmaq, təhlükəsizliyi qorumaq üçün birinci elə valideyn maariflənməlidir. Valideyn maaariflənsə, uşaqları da internetdəki təhlükələrdən sığortalaya bilər".

### "Sosial şəbəkələrdə uşaqlar üçün Azərbaycan dilində xüsusi səhifələr yoxdur"

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərovun sözlərinə görə, cəmiyyət, dövlət inkişaf etdikcə problemlərin mahiyyəti də dəyişir. Bu dəyişikliklər uşaq hüquqlarının müdafiəsi sistemində də baş verir. Belə ki, hazırda uşaqlara qarşı zorakılıq, uşaq nikahları ilə yanaşı uşaqların internet təhlükəsizliyinin təmin edilməsi də vacib problemlərdən biridir. Problemin həlli istiqamətində komitə tərəfindən hər il 20-30 məktəbdə 8-11-ci sinif şagirdləri üçün təlimlər keçirilir. Həssas kateqoriyadan olan ailələrlə, valideynlərlə iş aparılır. Bununla yanaşı komitə tərəfindən "kidsave.az" proqramı yaradılıb: "Hazırda 51 min vətəndaşa xidmət edən bu proqramla valideynlər uşaqlarını tam internet təhlükəsizliyi ilə təmin edirlər. Uzaqdan yazışmalarına nəzarət edə bilirlər, 24 saatlıq GPS sistemi, kompüter, yaxud smartfonun istifadə vaxtının tənzimlənməsi də həmin platformaya daxildir. Android vəsaiti kimi istifadəyə verilib. Artıq bu il çərçivəsində bir neçə proqram təminatı İOS sistemi üçün də istifadəyə veriləcək. Bu proqram vasiəsilə filtrasiya aparılır, uşaqların hansı sayta daxil olduqlarına nəzarət etmək olur. Uşaq vebsaytda sorğu verdikdə mənfi təsirli şəkil, video gəlirsə, dərhal aradan qaldırılır, göstərilmir. Həmin sistem vasitəsilə valideyn uşağa onlayn nəzarət də edə bilir. Məsələn, hansı yolla məktəbə gedib, gəlir. Digər tərəfdən, valideynlərə məsləhət görürük ki, uşaqlarına vaxt ayırsınlar. Uşaq sakit olsun deyə telefon, planşet verməklə məsələ həll olunmur. Uşaqlar yaşından asılı olaraq gün ərzində maksimum 1 saat internet resurslarından istifadə etməlidirlər. Hətta 15,16 yaşlı uşaqların da internetdən məhdud istifadəsi təmin edilməli, valideynlər tərəfindən daim nəzarətdə olmalıdırlar. Yaxşı olar ki, valideynlər uşaqlarını idmana cəlb etsinlər. Bu, uşağın həm şüuruna, həm də fiziki və mənəvi inkişafına müsbət təsir göstərər".

E.Səfərovun sözlərinə görə, internetdən asılılıq intihara gətirə bilən amillərdən biridir. Odur ki, valideynlər internetə aludə olan uşaqlarının ödənişsiz psixoloji yardım almaları üçün komitəyə müraciət edə bilərlər.

Şöbə müdiri qeyd edib ki, hazırda dövlət komitəsinin nəzdində ailə portalının yaradılması da vacib elementlərdən biridir. Bu portalda Azərbaycan dilində maarifləndirici materiallar yer alacaq: "Uşaqlar üçün Azərbaycan dilində internet resursların, sosial şəbəkələrdə maarifləndirici səhifələrin açılması bir-iki dövlət qurumunun işi ilə məhdudlaşmamalıdır. Özəl qurumlar, QHT-lər, cəmiyyət nümayəndələri tərəfindən maarifləndirici materiallardan ibarət internet səhifələrin yaradılması çox vacibdir. Təəssüf ki, sosial şəbəkələrdə uşaqlar üçün Azərbaycan dilində xüsusi səhifələr, bloqlar yoxdur".

Komitə sözçüsü onu da əlavə edib ki, uşaqların internetdən istifadəsini düzgün istiqamətə yönləndirmək, innovasiyaların yaradıcı qisminə cəlb etmək məqsədilə bu il çərçivəsində elektron müsabiqələr, startap layihələr həyata keçiriləcək.

Bəli, yaşadığımız texnika əsrində uşaq və yeniyetmələrin internetdən istifadəsini tamamilə qadağan etməklə onları onlayn təhlükələrdən uzaqlaşdırmaq mümkün deyil. Bu yanaşma əksinə, azyaşlı istifadəçinin internetə marağını bir qədər də artıra bilər. Onsuz da müasir dövrdə istənilən məkandan müxtəlif qurğular vasitəsilə internetə daxil olmaq mümkündür. Sadəcə uşaqların onlayn fəaliyyətlərinə nəzarət etmək daha məqsədəuyğundur. Mütəxəssislərin fikirləri və aparılan araşdırmalar da onu göstərir ki, uşaqların internetdən istifadəsində mütləq bir limit və ciddi nəzarət olmalıdır. Əks halda aqressiv, ünsiyyətdən qaçan və kompleksli bir nəslin yetişməsinə şərait yaradacağıq. Unutmayaq ki, internet adi bir oyun vasitəsi deyil, internet bizim həyatımızdır.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

## Küveytdə növbəti erməni təxribatının qarşısı alınıb

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bu günlərdə Küveyt Universitetində təşkil olunan sərgi çərçivəsində Ermənistan tərəfinin təxribata əl atdığı barədə məlumatla bağlı AZƏRTAC-ın sorğusunu cavablandırıb.

Leyla Abdullayeva bununla bağlı deyib: "Fevralın 9-da Küveyt Universitetinin Neft və mühəndislik fakültəsi tərəfindən təşkil olunan mədəniyyət festivalının açılışı olub. Əsasən universitetdə təhsil alan tələbələrin təmsil etdiyi 30-a yaxın dövlətin səfirliyinin, o cümlədən Azərbaycanın Küveytdəki səfirliyinin qatıldığı bu festival çərçivəsində ölkəmizin mədəniyyəti, turizm imkanları və s. barədə məlumatlar, nəşrlər, suvenirlər təqdim olunub. Festivala ölkəmizin Küveytdəki səfirliyinin əməkdaşları ilə yanaşı, "Vətənsevər" Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin üzvləri qatılıblar. Ermənistan stendində bu ölkənin səfirliyi tərəfindən Azərbaycana qarşı təxribat törədilərək, ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qanunsuz qurumun təşviq edilməsi cəhdi aşkarlanıb. Səfirliyimizin əməkdaşlarının məsələ ilə əlaqədar müdaxiləsindən sonra Ermənistan stendindəki saxta "xəritələr" aradan qaldırılıb və universitetin rəhbərliyi baş vermiş insidentə görə Azərbaycan tərəfindən üzr istəyib.

Təəssüflə qeyd etmək istərdik ki, işğalçı Ermənistan tərəfi müxtəlif beynəlxalq tədbirlərdə, o cümlədən sərgi və festivallarda Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaratdığı qeyri-qanuni rejimi təbliğ etməyə cəhdlər göstərir. Lakin bu kimi cəhdlər uğursuzluğa düçardır. Belə ki, bu cür qanunsuz təbliğat cəhdləri tərəfimizdən aşkarlandığı halda dərhal onların qarşısı alınır".

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Beynəlxalq aləm

## Çində koronavirusdan 908 nəfər ölüb




Çində yeni tipli koronavirusun törətdiyi sətəlcəmdən 908 nəfər vəfat etmişdir. Xəstəliyə yoluxanların sayı 40171 nəfərdir. Bu barədə Çin Dövlət Səhiyyə Komitəsi məlumat vermişdir.

Xəstəxanalarda təxminən 36 min nəfər müalicə olunur. Onların 6500-ü ağır vəziyyətdədir. 187,5 min nəfər xəstəliyə yoluxma ehtimalı ilə nəzarət altındadır. 3300 nəfər sağalmış və xəstəxanalardan evə buraxılmışdır.

Məlumata görə, Çin hökuməti koronavirusla mübarizəyə ümumilikdə 10 milyard dollardan artıq pul xərcləmişdir.

## Afrində terror aktı



Suriyanın şimal-qərbində yerləşən Afrin şəhərində törədilmiş terror aktı nəticəsində 4 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Terrorçular şəhərin mərkəzindəki küçələrin birində minalanmış avtomobil partlatmışlar. Partlayış nəticəsində başlamış yanğın söndürülmüşdür. Yaralılardan bəzilərinin vəziyyəti ağırdır.

PKK terrorçu təşkilatının Suriyadakı qanadının - YPG-nin silahlıları türkiyəli hərbçilərin iştirakı ilə terrorçulardan təmizlənmiş Əzaz, Bab, Cərablus, Mare və Afrin rayonlarında sabitliyi pozmaq cəhdlərindən əl çəkmirlər.

Xatırladaq ki, Afrin 2018-ci il martın 18-də "Zeytun budağı" əməliyyatı zamanı YPG/PKK terrorçularından təmizlənmişdir.

## "Parazitlər" "Oskar"ın baş mükafatına layiq görüldü



Los Ancelesdə Amerika Kino Akademiyasının mükafatlarının 92-ci təqdimat mərasimi keçirilmişdir. Ötən il olduğu kimi, bu dəfə də tədbirdə aparıcı olmamışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Cənubi koreyalı rejissor Pon Çjun Xonun "Parazitlər" filmi ilin qalibi seçilmişdir. Bu, ingilis dilində olmayan, əsas mükafata layiq görülən ilk filmdir.

"Parazitlər" həm də xarici dildə çəkilmiş ən yaxşı film mükafatına layiq görülmüşdür. Pon Çjun Xo "Ən yaxşı rejissor" nominasiyasında "Oskar"ın sahibi olmuşdur.

## NASA və EKA Günəşə zond göndərdilər



"Solar Orbiter" kosmik aparatını daşıyan "Atlas V" raketi Kanaveral burnundakı kosmodromdan Günəşə doğru start götürmüşdür. 1,5 milyard dollar dəyərində olan proqramı NASA və Avropa Kosmik Agentliyinin mütəxəssisləri birgə hazırlamışlar. Bu barədə "Euronews" telekanalı xəbər verir.

Zond Günəş aktivliyinin 11 illik sikllərinin izahına kömək edə biləcək məlumatları toplamalı, habelə ulduzun qütblərini öyrənməlidir. Bunun üçün peykin orbiti ekliptika (Yerin Günəş ətrafında hərəkət etdiyi yol) üzərində 24 dərəcə qalxacaq.

Alimlərdə indiyədək qütb sahələrinin fotoşəkilləri yoxdur. "Solar Orbiter" Günəşə xeyli yaxınlaşacaq. Bunun üçün onun üzərində istidən qoruyucu ekran quraşdırılmışdır. Həmin ekran 500 dərəcəyədək qızacaq.

Aparat Günəşə doğru iki il yol gedəcək. Onun iş sikli isə 7 ilə hesablanmışdır.

## "Siara" Avropanı vurdu



Son yeddi ilin ən güclü "Siara" qasırğası saatda 350 kilometr, yaxud saniyədə təxminən 100 metr sürətlə Atlantik okeanını keçərək Avropa ölkələrini vurmuşdur. Bu barədə "Euronews" telekanalı xəbər verir.

Böyük Britaniyada körpü və yollar bağlanmış, aviasiya reysləri ləğv edilmiş, idman yarışları təxirə salınmışdır. Minlərlə ev işıqsız qalmışdır. Təhlükəli hava şəraiti dünya rekordu vurmağa imkan vermişdir: Britaniya hava yollarına məxsus sərnişin təyyarəsi Nyu Yorkdan Londona cəmi 4 saat 56 dəqiqəyə çatmışdır! Qasırğa üzündən pilotlar sürəti saatda 1300 kilometrə qaldırmışdılar. Yeri gəlmişkən, Nyu Yorkdan Londona sərnişin təyyarəsi 6 saat 13 dəqiqəyə gəlir.

İsveçdə qasırğa nəticəsində 11 mindən çox ev təsərrüfatı işıqsız qalmış, bir çox aviareyslər təxirə salınmış, bəzi regionlarda dəmir yolu nəqliyyatı pozulmuş, İsveçlə Danimarka arasında körpülər bağlanmışdır.

Belçikada iki nəfər xəsarət almışdır. Şəhərlərdə ağaclar yıxılmış, dam örtüklərinə və evlərin fasadlarına zərər dəymişdir. Nəqliyyatın hərəkətində pozuntular var.

Fransada qasırğa səbəbindən Eyfel qülləsi bağlanmışdır.

## Tailandda hərbi qulluqçunun açdığı atəş nəticəsində ölənlərin sayı 27 nəfərə çatıb




Tailandda hərbi qulluqçunun odlu silahdan açdığı atəş nəticəsində 27 nəfər həlak olub, 57 nəfər yaralanıb.

Bu rəqəmləri Tailandın Baş Naziri general Prayut Çan Oça ölkə televiziyalarının efirində canlı yayımlanan mətbuat konfransında açıqlayıb.

"Dəqiqləşdirilən məlumata görə, xüsusi təyinatlı döyüşçülər, mülki şəxslər və cinayətkarın özü də daxil olmaqla, 27 nəfər ölüb. Yaralanan 57 nəfərdən 25-i artıq xəstəxanadan evə buraxılıb", - deyə Baş Nazir bildirib. Onun sözlərinə görə, cinayətin motivi əmlak sövdələşməsinə görə yaranmış şəxsi münaqişə olub. Ev satışında aldadıldığını başa düşən əsgər silaha əl atıb.

Atəş açan şəxsin Tailand ordusunun 32 yaşlı hərbi qulluqçusu Çakrapant Txomma olduğu müəyyənləşib. O, əvvəlcə hərbi hissədə öz komandirini və iki nəfəri güllələyib. Sonra hərbi avtomobili qaçıraraq gizlənib. Şəhərə doğru hərəkət edərkən yolda qarşısına çıxan dinc sakinləri atəşə tutub. Ticarət mərkəzinə girərək yenidən atəş açmağa başlayıb və 16 nəfəri girov götürüb.

Tailand polisi cinayətkarı ticarət mərkəzinin ərazisində zərərsizləşdirib və səkkiz girovu xilas edib.


## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tenderə dəvət edir

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün videoçarxların hazırlanması işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 50 (əlli) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **03.03.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **11.03.2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **12.03.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azercell korporativ abunəçilərinin nəzərinə

12.03.2020-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində korporativ abunəçilərə təqdim edilən "Korporativ 5000", "Region 1", "Region 2", "Səfirlik", "Azercell Partners", "Korporativ Classic", "Korporativ Premium", "Korporativ Platinium", "Korporativ Platinium Extra" və "Yeni Biznes" tarif paketlərində ölkədaxili çıxan zənglər (xüsusi tarifli qısa nömrələr istisna olmaqla) üzrə 60 saniyəlik hesablama intervalı tətbiq ediləcək.

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 24 yanvar 2020-ci il tarixdə elanı dərc olunmuş "Ələt azad iqtisadi zonası ərazisində ilkin elektrik işlərinin layihələndirilməsi və aparılması işlərinin satın alınması" məqsədilə 10 mart 2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulan açıq tender prosedurunun layihəsi üzrə texniki dəyişikliklərin edilməsi səbəbindən təxirə salınmasına qərar verilir.

***Tender komissiyası***

## "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir: Tikinti materiallarının satın alınması.

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübə, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri olan potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər:

**İştirak haqqı - 200 AZN**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**

**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142330**

**İştirak üçün ödənilən vəsait heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla ) **03 mart 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **11 mart 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **12 mart 2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

05 fevral 2020-ci il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatın inzibati binasının fasad örtüyünün 2020-ci il ərzində 3 (üç) dəfə yuyulması işinin satın alınması üçün keçirilən kotirovka sorğusunda **"Emin və Eynulla" MMC** qalib olmuşdur.

Qalib gəlmiş təşkilat ilə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## "Holcim Azərbaycan" ASC-nin Təchizat və Müqavilələr şöbəsi tender elan edir

"Holcim Azərbaycan" ASC təchizatçı şirkətlər bazasını artırmaq məqsədilə aşağıda göstərilən xidmət üzrə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən şirkətləri əməkdaşlıq etməyə dəvət edir:

**rfq_44597 - 11213634/ Annual Frame for HAZ POS materials**

Maraqlı tərəflər yuxarıda göstərilən xidmətin adını qeyd edib, şirkətin profayl məlumatlarını 15 fevral 2020-ci il tarixədək offer-aze@lafargeholcim.com elektron ünvanına göndərə bilərlər.

"Holcim Azərbaycan" ASC-nin tələblərinə uyğun olan sirkətlərə əlavə məlumat veriləcək.

***Tender komissiyası***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Gündüz Kərimova əzizi

**İVAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının Redaksiya və nəşr işləri şöbəsinin əməkdaşları iş yoldaşları Aidə Əhmədovaya anası

**SİTARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi 11 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəisi Natiq Misirova atası

**FAİQ MİSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Mətanət A" şirkətinin Müşahidə Şurasının sədri Elxan Başirov Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini Əli Abdullayevə atası

**İZZƏT ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6975
Sifariş 431
Qiyməti 40 qəpik